

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ QAPISI

100 ilin qəzeti

Sayı: 2 (24.384)

13 yanvar 2024-cü il, şənbə

www.serqqapisi.gov.az

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti


## Prezident həftəsi

Yanvarın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın şərəfinə rəsmi ziyafət verilib.



Azərbaycan Respublikasına rəsmi səfərə gələn Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın yanvarın 9-da rəsmi qarşılanma mərasimi olub.



Yanvarın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə geniş tərkibdə görüşü olub.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibə verib.



# Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirməliyik

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsi suverenliyimizin tam bərpa olunmasından, xüsusən də Xankəndi Zəfərindən sonra hər birimizin arzusu idi. Çünki yeni tarixi reallığı, yeni tarixi mərhələni yaşayırıq. Ən böyük reallıq Qarabağın tam azad olunması, Qarabağdan separatizmin, terrorizmin təmizlənməsi və cənab Prezidentin təbirincə desək, tarixin zibilliyinə atılmasıdır.

Bu gün ərazi bütövlüyünü tam bərpa etmiş Azərbaycanda son 20 illik fəaliyyətə nəzər salsaq, bu 20 ildə haradan-haraya gəldiyimizin çox açıq mənzərəsi görünür. Son 20 ilin tarixi göz qabağındadır və əsas məsələ ondadır ki, 2003-cü ildə Azərbaycan xalqı düzgün seçim etdi. Elə ona görə də müstəqil tariximizin ən həlledici məqamı məhz 2003-cü il idi. Cənab Prezidentin dediyi kimi: ***"Əgər tarix başqa istiqamətdə getsəydi, bilmək olmaz, xalqımız, dövlətimiz hansı bəlalar, faciələrlə üzləşəcəkdi. Hər halda, müstəqilliyimizin ilk iki ili əyani şəkildə göstərir ki, güclü lider olmadan və düşünülmüş siyasət olmadan istənilən ölkə, xüsusilə gənc, müstəqil ölkə çox ciddi təhlükələrlə üzləşə bilər".***

Bugünkü Azərbaycan isə, sözün əsl mənasında, dünya miqyasında güclü ölkələr sırasındadır. Bu həm beynəlxalq aləmdə, həm regionda, eyni zamanda daxili siyasət prioritetlərinin düzgün seçilməsində bir çox ölkələr üçün nümunə ola bilər. 2023-cü ilin 19-20 sentyabr hadisələrinə qədər gedilən yol məqsədyönlü, məqsədə hesablanmış yol idi. İstər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərin son nidası idi. Cənab Prezidentin sözləri ilə desək ***"Müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən sonra başlayır".***

Cənab Prezident bu ədaləti, eyni zamanda beynəlxalq müstəvidə siyasi və diplomatik savaş apararaq əldə etdi. Məhz buna görə də bizim Zəfərimizin əhəmiyyəti daha önəmlidir: ***"Xocalıda bayrağın qaldırılması daha da həyəcanlı idi, onu açıq deyə bilərəm. Xankəndidə isə bayrağın qaldırılması ədalətin tam bərpası idi və Zəfərimizin son nöqtəsi idi".***

Son zamanlar Fransanın rəsmi şəxsləri tərəfindən tez-tez anti-Azərbaycan bəyanatlarının, Parisin BMT Təhlükəsizlik Şurasına təqdim etməyə çalışdığı qətnamələrin, həmçinin Ermənistanın silahlandırılmasına şahidlik etdiyimiz mənzərələr fonunda cənab İlham Əliyevin ***"Biz belə desək, onlara öz meydançalarında qalib gəldik"*** fikri baş verənlər kontekstində BMT Təhlükəsizlik Şurasında və Avropa İttifaqında bir fiaskodur. Azərbaycanın isə şəksiz diplomatik qələbəsidir.

Naxçıvanla əlaqə məsələsi ilə hərzamankı kimi bütün mövzuların ən başında dayanır. Cənab Prezident: ***"Onlar, ilk növbədə, Zəngilanla Ordubad arasındakı ərazidə bizə maneəsiz keçid verməlidirlər. Bu onların öhdəliyidir. Mən artıq demişəm, bir daha demək istəyirəm, Azərbaycandan Azərbaycana gedən yüklər, vətəndaşlar və avtonəqliyyat vasitələri heç bir yoxlamadan keçmədən, gömrük inzibatçılığına cəlb edilmədən sərbəst keçməlidirlər".***

Azərbaycan artıq bunun üçün üç il səbir edib. Ermənistanın bu mövzuda ləng tərpəndiyini, daha doğrusu, tərpənmək istəmədiyini görəndə qısa yolla Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirmək zərurəti digər bir planla reallaşdı. İranla artıq razılıq da əldə edildi, təməlqoyma mərasimi keçirildi. İndi Ağbənd istiqamətində artıq birinci körpünün inşası başlanmışdır və ikinci körpü də Ordubad istiqamətində nəzərdə tutulur. Beləliklə, Ermənistan yenə dalan olaraq qalacaq. Cənab Prezident bunu açıq şəkildə ifadə etdi: ***"Ona görə Ermənistan tərəfinə məsləhətim odur ki, burada manipulyasiyalarla məşğul olmasın... Əks təqdirdə, Ermənistan əbədi dalan kimi qalacaq və əgər, dediyim marşrut açılmasa, biz Ermənistanla heç bir başqa yerdə sərhədimizi açmaq fikrində deyilik".***

Prezident seçkiləri ilə bağlı cənab Prezidentin fikirləri isə son dərəcə önəmli və səmimi idi: ***"Birinci səbəb, təbii ki, suverenliyimizin tam bərpasıdır... İkinci səbəb ondan ibarətdir ki, ilk dəfə olaraq müstəqil həyatımızda seçkilər ərazilərimizin hər bir yerində keçiriləcək. Prezident seçkiləri bütün digər seçkilərlə müqayisədə ən vacib seçkilər olduğu üçün mən hesab etdim ki, birinci bütün ərazilərdə keçiriləcək seçkilər prezident seçkiləri olmalıdır..."***

Bunu həm də yeni missiyanın başlanğıcı kimi qəbul etmək olar. Yəni biz özümüzü daha böyük həcmdə lazım olan vasitələrlə təmin edəcəyik. Ordu quruculuğu prosesi davam edəcək. Cənab Prezident bu kontekstdə yeni müharibə ilə bağlı cəmiyyətdə və beynəlxalq arenalarda dolaşan əsassız söhbətlərə isə birdəfəlik nöqtə qoydu: ***"Demirəm, hər an biz fikirləşməliyik ki, yeni müharibə olacaq. Yox, mən əminəm ki, olmayacaq və əlimdən gələni edəcəyəm ki, olmasın. Yetər, müharibələr kifayətdir".***

Bu il Qarabağda, Şərqi Zəngəzurda infrastruktur layihələrinin hamısı davam etdiriləcək. Bu nəhəng layihələr imkan verir ki, bu il daha böyük sayda keçmiş köçkünlər öz dədə-baba torpaqlarına qayıtsın. Bu il qayıdılacaq şəhərlər arasında beş şəhər – Şuşa şəhəri, Cəbrayıl şəhəri, Kəlbəcər şəhəri, Xankəndi şəhəri, Xocalı şəhəri də olacaq. Bu isə sərhədlərimizin delimitasiyası və demarkasiyası ilə bağlı məsələyə yenidən qayıtmağı zəruri edir. Bu mövzuya isə Prezident cənab İlham Əliyev çox qəti münasibət bildirdi: ***"Biz heç yerə qayıdan deyilik. Nə 2021-ci ilin may ayındakı mövqelərdən, nə də 2022-ci ilin sentyabr ayındakı mövqelərdən biz bir addım geri gedən deyilik, çünki o sərhəd müəyyən edilməlidir".***

Yaxşı bilirik ki, getdikcə yaşıl enerjiyə tələbat artır. Neft-qaz sahəsində fəaliyyət göstərən şirkətlərin investisiya portfelində əgər yaşıl enerji layihələri olmasa, onlar böyük çətinliklərlə üzləşəcəklər. Avropada bizim qazımıza tələbat gündən-günə artır və biz bunu ancaq bərpaolunan enerji hesabına edə bilərik. Bu gün səkkiz ölkə Azərbaycan qazını alır, onlardan altısı Avropa ölkəsidir. Gələcəkdə bu ölkələrin sayı artacaq. Avropa İttifaqının Enerji Komissiyası isə Azərbaycanı Panavropa qaz təchizatçısı adlandırır. Bu isə ölkəyə böyük dividendlər gətirir, həm iqtisadi, həm də, təbii ki, siyasi. Bunu isə ölkə başçısı çox yaxşı şəkildə ifadə etdi: ***"Əgər bizim qazımızın Avropaya nəqli hansısa səbəbə görə kəsilsə, onda bir çox ölkələr daha çətin vəziyyətə düşəcək və bunu Avropada hər kəs başa düşməlidir, o cümlədən məsuliyyətsiz bəyanatlar verən Avropa Parlamentinin sədri də bunu bilməlidir".***

Azərbaycan xalqı gücünü öz liderindən alır. Lider isə xalqına arxalanır, bunu dəfələrlə bəyan edən ölkə başçısı bir gerçəyi də dilə gətirdi: ***"Mən hesab edirəm ki, gücümüzün əsas mənbəyi haqlı olmağımızdır. Çünki biz haqlıyıq və istənilən auditoriyada, istənilən tədbirdə öz haqlı olmağımızı sübut etmək üçün kifayət qədər əsaslarımız var".***

2024-cü ildə HAQLI və GÜCLÜ Azərbaycan isə beynəlxalq müstəvidə daha böyük hədəflər uğrunda əzmlə çalışır. Güclü Liderlə yeni uğurlara doğru, yolun açıq olsun, Azərbaycan!

**Məmməd BABAYEV**


İyirminci əsrdə geriyə baxış: şəxsiyyət və peşəkarlıq 2

Səlahiyyətli nümayəndə Culfada vətəndaşları qəbul edib 3

Bütöv Azərbaycan naminə tarixi gün 5

Ancaq Fransa bunu bacarmır 6

Hüquqları bərpa olunmuş mülkiyyətçilər minnətdarlıq edirlər 11

# İyirminci əsrdə geriyə baxış: şəxsiyyət və peşəkarlıq



*"Azerbaijan International" jurnalının baş redaktoru Betti Bleyerin 5 dekabr 1999-cu ildə – istirahət günündə iş başında olan Heydər Əliyevdən aldığı müsahibə həmin jurnalın 1999-cu ilin (7.4) sayında ingilis dilində oxuculara təqdim edilib. İngiliscədən Azərbaycan dilinə tərcümə edilən müsahibənin aktuallığını nəzərə alaraq oxuculara təqdim edirik.*

***Betti Bleyer:*** – Mən sizdən əksər jurnalistlərin ən son siyasi və regional hadisələr haqqında soruşduğu ənənəvi sualları deyil, daha çox şəxsi həyatınız, tərbiyəniz, bu əsrin yarısından çoxunda rəhbərlik etdiyiniz xalqınız haqqında soruşmaq istərdim.

***Heydər Əliyev:*** – Buyurun, başlayaq.

***Betti Bleyer:*** – Gəlin uşaqlıqda sizin həyatınızı və karyeranızı formalaşdıran bəzi maraqlarınızdan, həyat təcrübələrinizdən başlayaq.

***Heydər Əliyev:*** – Mən uşaq olanda nə vaxtsa böyük bir lider olmaq haqqında fikirləşmirdim. Düşünmürdüm ki, siyasətlə məşğul olacam və bir dövlət xadiminə çevriləcəm. Mən, hətta gələcək haqqında fikirləşmirdim. Əsasən, məktəbdə oxuyanda bəzi əsas biliklərə yiyələnməyə və əla qiymətlər almağa var gücümlə çalışırdım. Təhsilimə gəlincə isə deyə bilərəm ki, məni tamamilə intizama öyrətdilər.

Atama və anama gəldikdə, onlar mənim həyatıma hərtərəfli təsir etdilər. Anam yeddi övladı tərbiyə etdi. Atam lokomotiv sürücüsü kimi dəmir yolunda işləyirdi. Ancaq onlar çox gözəl insani keyfiyyətlərə malik idilər. Doğrudur, bizim həyat şəraitimiz çox çətin idi, ancaq mən xatırlaya bilmirəm ki, biz xoşbəxt deyildik. Fikirləşirdik ki, bizim vəziyyətimiz və şəraitimiz Tanrı tərəfindən bizə verilib və biz bu şəraitimizi olduğu kimi qəbul edirdik.

Sovet dövründə biz – uşaqlar bacardığımız müxtəlif fəaliyyətlərlə məşğul olmaq üçün Pionerlər Evinə gedərdik. Mən orada çox fəal idim. Şahmat oynamağa və musiqi dərslərində iştirak etməyə başladım. Atam kasıb idi, mənə tar almağa imkanı olmadı, ona görə də Pionerlər Evinə getdim və orada məşq etdim.

Lakin mənim ən böyük marağım teatra idi. Baxmayaraq ki, böyüdüyüm Naxçıvan kiçik bir müsəlman şəhəri, əyalət idi, ancaq orada çox yüksək səviyyəli mədəniyyət var idi. Bizim teatr ənənəmizin yüz ildən artıq yaşı var. Siz təsəvvür edə bilərsinizmi ki, çox keçmişdə orada teatr ənənəsi vardı? Bu tamamilə böyük bir nailiyyət idi. Məsələn, Naxçıvanın cənubundan, təxminən, üçsaatlıq məsafədə olan, əsasən, azərbaycanlıların məskunlaşdığı böyük İran şəhəri Təbrizin bu günə kimi hələ də bir teatrı yoxdur. İndiyə kimi, Naxçıvan bu ənənəni davam etdirir. Başqa sözlə desək, baxmayaraq ki, orada sizin ziyalı adlandırdığınız cəmi bir neçə adam var idi, onlar teatrı yaratmışdılar. Mən 12 və 13 yaşlarımda teatra çox gedərdim.

Bəzən teatra bilet almağa pulum olmurdu, lakin uşaq olduğum üçün biletsiz teatra daxil olmağıma icazə verirdilər. Bu mənim üçün böyük bir hadisə idi. Belə hadisələr uşaqlıq dövrümün ən əziz xatirələrindəndir. Naxçıvan teatrının mənim üzərimdə dərin təsiri vardı. Çox keçmədi, mən Pionerlər Evində teatrla məşğul olmağa başladım. Bizim klubumuzun rəhbəri Naxçıvan teatrının aparıcı aktyorlarından biri idi.

Bir müddət sonra, mənə bir neçə əsas rollar tapşırıldı. Məsələn, Azərbaycan teatrının banisi Mirzə Fətəli Axundzadə ölkəmizdə ilk dram əsərini yazmışdı. Onun "Sərgüzəşti vəziri-xani-Lənkəran" əsəri var. Bu yaxınlarda haradasa qəzetlərdən oxudum ki, bu əsər yenə də teatrda səhnəyə qoyulur, lakin biz onu səhnələşdirəndə mən baş rolu sona qədər oynadım. Əlbəttə, biz, bütövlükdə, əsəri tam şəkildə oynaya bilməzdik – yalnız iki və ya üç hissəni oynadıq. Mənim onda 14, yaxud 15 yaşım olardı. Sonra biz iki pərdədə "Hamlet"i səhnəyə qoyduq. Mən Hamleti oynadım.

***Betti Bleyer:*** – Yəqin ki, Azərbaycanca?

***Heydər Əliyev:*** – Bəli, "Hamlet" əsəri Azərbaycan dilinə tərcümə edilmişdi. Mən ingiliscə danışmırdım. Naxçıvanda o dövrdə heç kim ingilis dilini bilmirdi. Mən həmçinin çox yaxşı rəsm çəkməyi bacarırdım və rəsm çəkməyə başladım. Eskizlərim orta məktəbdə təşkil olunan müsabiqələrdə həmişə birinci yeri tutardı. Ola bilsin ki, bizim ailəmizdə bir növ istedad var idi, çünki məndən böyük qardaşım rəssam oldu. Mən orta məktəbdə oxuyanda, o, Leninqrada İncəsənət İnstitutunda təhsil almağa getdi. O, tətillərdə evə gələndə təbiət mənzərələrinin rəsmini çəkərdi. Mən də ondan əl çəkməzdim və beləcə, rəsmlər çəkməyə başladım. Gördüm ki, rəsm çəkməyi də olduqca yaxşı bacarıram. Beləliklə, orta məktəbi bitirənə kimi mən rəssam olmağı düşünürdüm. Ancaq o vaxt Azərbaycanda İncəsənət İnstitutu yox idi, beləliklə, gələcəkdə təhsil almaq və təcrübə qazanmaq üçün mənim başqa yolum olmadı. On altı yaşımda Naxçıvanı tərk etdim və Bakıya gəldim.

***Betti Bleyer:*** – O zaman belə bir addım atmaq qeyri-adi hal idi?

***Heydər Əliyev:*** – Əlbəttə. Hər şeydən əvvəl, ona görə ki, Bakı ilə Naxçıvan arasındakı məsafə də çox uzaq idi. Üç gün qatarla yol getməli idin, çünki Naxçıvanla Bakı arasında birbaşa hərəkət edən qatar yox idi. İrəvana getməliydin, oradan Tbilisiyə və sonra qatarları dəyişib Bakıya getməli olurdun. Mən çox vaxt tətillərdə dəmiryol stansiyalarında yatmışam.

***Betti Bleyer:*** – Kim bu həyat hekayəsinə inana bilər?

***Heydər Əliyev:*** – Bəli. Bu, həqiqətdir. Sonra mən Bakıya gəldim və universitetdə Memarlıq ixtisasında təhsil aldım.

***Betti Bleyer:*** – Siz Bakıya tək gəldiniz? Ailəniz sizi müşayiət etdi?

***Heydər Əliyev:*** – Tək özüm. Mən tətillərdə Naxçıvana qayıdardım. Mən həmişə müstəqil olmuşam.

***Betti Bleyer:*** – Niyə siz Naxçıvanı tərk edib Bakıya gəldiniz?

***Heydər Əliyev:*** – Çünki Naxçıvanın universiteti yox idi və mən təhsilimi davam etdirmək istəyirdim, qardaşım o zaman Bakıda yaşayırdı. O, alim oldu və Milli Elmlər Akademiyasında işləyirdi. Mən memarlıqla maraqlanırdım və arxitekturanı çox sevirdim. Mən memar olmaq üçün təhsil almağı planlaşdırmışdım. Başqa bir məsələni mütləq yada salmalıyam. Biz Naxçıvanda Azərbaycan dilində təhsil almışdıq, lakin Bakıda universitetdə memarlıq ancaq rus dilində öyrədilirdi. O vaxt professorların hamısı Rusiyadan gəlmişdi. Mən rusca çox pis danışırdım. Bu mənim üçün çox ciddi bir problem idi və qəbul olunmayacağıma görə çox narahat idim. Ancaq böyük qardaşım təkid etdi ki, tədricən rus dilini daha yaxşı öyrənməliyəm. O vaxtlar Bakıdan kənarda rus dilində danışan çox az azərbaycanlı var idi.

Mən rus dilini tam öyrənməyə müvəffəq oldum və universitetin Memarlıq fakültəsinə daxil oldum. Yataqxanada tək özüm yaşayırdım. Mənim çoxlu maddi ehtiyaclarım var idi, ona görə ki, ailəmiz çox böyük olduğundan atamın mənə pul göndərməyə imkanı yox idi. Tələbə təqaüdü almağıma baxmayaraq, bu mənim yaşayış xərclərimi ödəmək üçün kifayət qədər deyildi.

Qardaşım mənə Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunda başqa bir iş tapmağa kömək etdi. Mən yeni işimə axşamlar gedərdim və xəritələrin surətlərini çıxarıb gecə yarısına qədər işləyərdim. Bu daha asan iş idi və mənə bir az pul qazanmaq imkanını verirdi. Belə, mən bu cür yaşayırdım.

Yenidən mən universitetdə dramla məşğul oldum. Birinci kursdan sonra mənə yenə də bir neçə baş rollar oynamağı tapşırdılar. Teatr mənə böyük təsir etdi. Bu rolları oynamaq mənə əsərlərin daha dərin mənasını başa düşməyə kömək etdi. Bu günə kimi hələ də mən teatrı çox sevirəm.

Sonra 1941-ci ildə müharibə başladı və bu təhsilimin sonu oldu. Mən üçüncü kursda idim, lakin orduya çağırıldım və Milli Təhlükəsizlik Nazirliyinə göndərildim. Təxminən, bir il ərzində leytenant rütbəsi aldım, lakin ürəyim memarlıq üçün darıxırdı. Müharibədən sonra ordunu tərk etmək və memarlığı davam etdirmək istədim, ancaq onlar geriyə qayıtmağıma icazə vermədilər.

***Betti Bleyer:*** – Beləliklə, siz universiteti bitirmədiniz?

***Heydər Əliyev:*** – Xeyr, bitirmədim. Mən yalnız, təxminən, üç il təhsil aldım. Sonra təhlükəsizlik sistemində işlədim. Yenə də müvəffəqiyyət ilə. Mən təhlükəsizlik sistemində qalaraq orada 25 il çalışdım.

***Betti Bleyer:*** – Burada, Azərbaycanda?

***Heydər Əliyev:*** – Burada, həmçinin başqa ölkələrdə. Mən çox uğur qazandım və nəticədə, mənə general rütbəsi verildi. Həmçinin o sistemdə mən çox yüksək qiymətləndirildim, çünki siyasi bilik çox vacib idi.

Sonra 1969-cu ildə Azərbaycana rəhbər seçildim. Ancaq sizin ilkin sualınıza qayıdaq, başqa sözlə desək, mən gəncliyimdə hərbi və təhlükəsizlik, siyasi partiyalar və dövlət işiylə məşğul olmaq niyyətində olmamışdım. Mən, sadəcə, rəssam və ya memar olmaq istəmişdim. Lakin həyat məni fərqli bir yola apardı. Məlum oldu ki, mənim, həmçinin digər sahələrdə də istedadım vardı, ancaq mən bu işlərə başlamamışdan əvvəl bunu bilmirdim.

***Betti Bleyer:*** – Məhz buna görə də siz hələ də incəsənətə belə həssassınız.

***Heydər Əliyev:*** – Bəli. Mən incəsənəti çox sevirəm. Sonra mən 14 il Azərbaycanın rəhbəri oldum. Bu təsadüfən baş vermədi, belə təcrübədən sonra Moskvaya Kremldə işləməyə təyin edildim. Əlavə edə bilərəm ki, böyük Sovet imperiyası tarixində yeganə hadisə idi ki, bir azərbaycanlı – bir müsəlman Siyasi Büroya vəzifəyə təyin olunmuşdu.

***Betti Bleyer:*** – Siz çoxlu qərəz və ayrı-seçkiliklə rastlaşdınızmı?

***Heydər Əliyev:*** – Bəli, əlbəttə, çünki mənim kimi bir şəxsin Moskvada yüksək vəzifədə olması qeyri-adi bir hal idi. Bu, bir həqiqətdir ki, Moskvada Siyasi Büroda, həmçinin şovinistlər də var idi. Onlar qısqanc idilər, çünki düşünürdülər ki, ancaq ruslar yüksək vəzifələrdə olmalıdı. Xatırlayıram ki, Amerika jurnallarından birində – "Taym maqazin"də (Time Magazine) bir vaxt 1983, yaxud 1984-cü ildə mənim haqqımda bir məqalə dərc olundu. Məqalədə yazılmışdı ki, Heydər Əliyev Andropovun ölümündən sonra Sovet İttifaqına başçılıq etmək üçün ən səriştəli və layiqli şəxsdir. Ancaq məqalədə qeyd olunmuşdu ki, müsəlman olduğuma görə, mənə heç vaxt Sovet İttifaqına rəhbərlik etməyə icazə verilməyəcək.

Yenidən Andropovun və sonrakı Çernenkonun ölümündən sonra, deməli, Qərb mətbuatında mənim Sovet İttifaqına rəhbərlik etmək üçün çox qiymətli və layiqli namizəd olduğumla bağlı yazılar – bəzi məqalələr dərc olundu. Həmin məqalələr, hətta mənə qarşı olan qısqanclığı daha da alovlandırdı, elə gücləndirdi ki, 1987-ci ildə Siyasi Bürodan istefa vermək məcburiyyətində qaldım.

Mənim xatırlayacağım daha bir jurnal məqaləsi vardı. Bu Amerikanın jurnalı idi. Jurnalda yazılmışdı: "Siyasi Büronun yuxulu üzvləri arasında Heydər Əliyev Hollivud ulduzuna bənzəyir". Bax budur, necə oldu ki, mən siyasətlə məşğul olmağa başladım.

Müəyyən etmək çox çətindir ki, uşaqlıqda xüsusi nəsə baş verdi və bu məni siyasətçi olmağa məcbur etdi. Ən əsası bu idi ki, mən çox gərgin çalışırdım. Görürsünüz, siz mənimlə bu gün – bazar günündə görüşürsünüz. Heç kim nə Amerikada, nə də Moskvada bazar günləri işləmir. Ancaq burada, mənim iş yerimdə mən özümü və ətrafımda mənimlə işləyən bütün bu insanları bazar günü işləməyə məcbur edirəm.

***Betti Bleyer:*** – İcazə verin, sizdən Sovet İttifaqının süqutu haqqında soruşum. Mənə çox maraqlıdır ki, siz bunun baş verməsini gözləyirdinizmi?

***Heydər Əliyev:*** – Düzünü desəm, bunu bundan əvvəl də dəfələrlə məndən soruşublar. 1987-1988-ci illər ərzində mən artıq hiss etdim ki, Sovet İttifaqı dağılmağa doğru gedir. Mən 1987-ci ildə istefa verəndən sonra üç il (1988-90) Moskvada evdə oldum və işləmədim. Real yanaşsaq, az miqdarda təqaüdümlə yaşadım. Övladlarım daha gənc idi, nəvələrim isə çox kiçik idi. Bu həmin vaxt idi ki, mənim hadisələri daha diqqətlə izləmək imkanım oldu. Əmin oldum ki, Sovet İttifaqı süqut ərəfəsindədir. Lakin sizə həqiqəti deyim ki, heç vaxt təsəvvür etməzdim ki, Sovet İttifaqı belə tez süqut edəcək – İttifaq, həqiqətən, gecəyarısı dağıldı.

Məncə, mənim həyatım iki hissəyə bölünüb. Birinci mərhələyə 1990-cı ilə qədərki fəaliyyətim daxildir. Mən bu haqda artıq qısaca danışdım – necə təhsil aldım, işə başladım və nəticədə, Siyasi Büroda yüksək bir vəzifəyə irəli çəkildim. İkinci mərhələyə isə 1990-cı ilin hadisələri ilə başlayan, on il ərzində baş vermiş hadisələr aiddir.

Qorbaçovun və Siyasi Büronun himayədarlığı ilə Sovet İttifaqında törədilən 1990-cı ilin Qanlı Yanvar faciəsi zamanı, xüsusilə mənim ölkəmə və xalqıma qarşı olan təcavüz məni lap çox məyus etdi. Məhz ona görə, mən Kommunist Partiyasından istefa verdim. Baxmayaraq ki, daha sonra bu adı hala çevrildi, o zaman belə bir addım atmaq çox qeyri-adi hadisə idi.

***Betti Bleyer:*** – Xüsusilə belə yüksək səviyyədə.

***Heydər Əliyev:*** – Əlbəttə. Xəbər bütün dünyaya yayıldı.

***Betti Bleyer:*** – Beləliklə, siz Kommunist Partiyası ilə əlaqələrinizi o səviyyədə kəsən ilk şəxs idiniz?

***Heydər Əliyev:*** – Bəli, hətta onlar məni təqib etməyə başladılar. 21 yanvarda, o vəhşiliklər başlayandan sonra mən Moskvada Azərbaycana qarşı törədilmiş təcavüzü pisləyən, ittiham edən bir çıxış etdim. Mən Bakıya qarşı törədilmiş bu hərbi təcavüzü – Sovet hökuməti və Kommunist Partiyası tərəfindən öz əhalisinə qarşı hərbi təcavüz hesab etdim. Mənim Kommunist Partiyasından istefa verməyimin səbəbinə dair bəyanatım qəzetlərdə dərc olundu. O hadisələr məni o vaxta qədər – bütün həyatım boyu xidmət etdiyim Kommunist Partiyasına qarşı etiraz etməyə məcbur etdi.

Məsələn, 1990-cı ildən sonra mənim həyatım öz axarı ilə getmədi. Mən çoxlu çətinliklərlə üzləşdim. Dəfələrlə onlar məni devirməyə və həyatıma sui-qəsd etməyə cəhd etdilər. Ancaq Tanrı məni xilas etdi. Məsələn, mənim Qanlı Yanvar haqqındakı bəyanatımdan sonra onlar Moskvada məni həbs etməyə cəhd etdilər. Mən 1990-cı ilin yayında Moskvadan Azərbaycana böyük çətinliklə gəlməyi bacardım.

***Betti Bleyer:*** – Siz mənə daha çox detalları deyə bilərsinizmi?

***Heydər Əliyev:*** – Çətinlik belə idi ki, mən ev dustağı idim və bütün telefonlarım dinlənilirdi, 1990-cı ildən sonra mənim hər anım izlənilirdi. Bir neçə dəfə mən Bakıdakı qardaşıma oraya qayıtmaq istədiyimi demək üçün zəng etdim. Tanışlarımdan birini təyyarə bileti almaq üçün göndərdim, ancaq haradansa hakimiyyət orqanları bunu bildi. Liqaçov (Mərkəzi Komitənin katibi Yeqor Liqaçovu nəzərdə tutur – S.A.) mənə zəng etdi. Həmin vaxt o, Kommunist Partiyasında ikinci səlahiyyətli şəxs idi. Siyasi Büronun bir neçə başqa üzvü də mənə zəng etdi və onlar mənim Azərbaycana getməyimə mane olmağa çalışırdılar. Mən onlardan soruşdum ki, niyə onlar mənə deyirlər ki, Azərbaycana qayıtmağım oradakı stabilliyi poza bilər.

Ardı 4-cü səhifədə

# Naxçıvanda xeyriyyə konserti təşkil olunub





Yanvarın 10-da Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında “Naxçıvan Qaziləri” İctimai Birliyi və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə konsert proqramı təşkil olunub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, hökumət və dövlət rəsmiləri, şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himnimiz səsləndirilib.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli şəhid ailələri, qazilər, müharibə veteranları ilə bu cür görüşlərin qürurverici olduğunu və xoş təsir bağışladığını bildirib.

Vurğulayıb ki, xalqımız tarixinin ən şanlı dövrünü yaşayır. 2020-ci ildə Ali Baş Komandanımızın rəhbərliyi ilə Vətən müharibəsində bizə şanlı qələbə qazandıran ordumuzun ötən il apardığı birgünlük antiterror tədbirləri nəticəsində suverenliyimiz və ərazi bütövlüyümüz tam bərpa olundu, Qarabağ problemi öz həllini tapdı.

Fuad Nəcəfli bildirib ki, bu gün Azərbaycan xalqı Heydər Əliyev ideyalarının ətrafında sıx birləşmiş vəziyyətdədir. Bu gün çox qürurluyuq ki, ordumuz Ümummilli Liderimizin layiqli davamçısı, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində böyük Zəfər qazandı. Bu gün Xankəndidə sosial-mədəni tədbirlər keçirilir. Bu il prezident seçkiləri işğaldan azad olunmuş əzəli yurd yerlərimizdə də təşkil olunacaq.





“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”na əsasən muxtar respublikada mühüm layihələrin icra olunduğunu diqqətə çatdıran Fuad Nəcəfli deyib ki, ötən il 11 prioritet istiqaməti əhatə edən layihələrin texniki-iqtisadi əsaslandırılması aparılıb və bunun üçün 50 milyon manata yaxın vəsait sərf olunub. Tikinti, kənd təsərrüfatı və digər istiqamətlərdə layihələndirmə işləri yekunlaşdırılıb. Bu ildən başlayaraq artıq layihələrin konkret icrası təmin olunacaq. Xüsusilə dövlət başçımız tərəfindən “Yaşıl dünya naminə həmrəylik ili” elan olunan 2024-cü ildə Naxçıvanda ölkəmizin və dünyanın ən iri şirkətləri tərəfindən yaşıl enerji layihələri icra olunacaq, yeni elektrik stansiyaları, santrallar, müasir suvarma sistemləri tikilib istifadəyə veriləcək. Bütün bunlar göstərir ki, Azərbaycanın güclü iqtisadiyyatı var. Bu güc Azərbaycan xalqının rifahının daim yüksəlməsinə sərf olunur və olunacaq.



Səlahiyyətli nümayəndə hər kəsi qarşıdan gələn prezident seçkilərində fəal iştiraka səsləyib, xalqımızın seçki prosesində yüksək əhval-ruhiyyə və qələbə əzmi ilə hamılıqla iştirak edəcəyinə əminliyini ifadə edib, qazilərə sağlam həyat, şəhidlərimizə rəhmət diləyib.

Şəhid İslam Eyvazovun anası Aytən Eyvazova səlahiyyətli nümayəndəyə dəmir yumruq maketini təqdim edib.

Vətən müharibəsi şəhidi Şükür Hacıyevin anası Fatma Şükürlü çıxışında ötən il Naxçıvandan 23 şəhid ailəsinin Şuşaya səfərini xatırladı. Qəhrəman övladlarının tarix yazdığı torpaqlarımıza belə səfərlərin şəhid anaları üçün olduqca əziz olduğunu bildirən Fatma xanım bu cür təşəbbüslərin, eləcə də xeyriyyə konsertinin təşkilində əməyi olan hər kəsə təşəkkür edib.

“Naxçıvan Qaziləri” İctimai Birliyinin sədri Cehun Bayramov birliyin yaradılmasına və fəaliyyətinə göstərilən dəstəyə görə dövlətimizə minnətdarlıq edib, hər zaman vətən oğullarının yanında olacaqlarına, onların problemlərinin həllinə dəstək göstərəcəklərinə söz verib. Bildirib ki, bu gün birliyin təşəbbüsü ilə təşkil olunan konsertdən əldə olunan gəlir “Naxçıvan Qaziləri” İctimai Birliyinin hesabına köçürüləcəkdir.

Sonra tədbir bədii hissə ilə davam edib.

Naxçıvan Dövlət Filarmoniyasının mahnı və rəqs ansamblının, rəqs kollektivlərinin çıxışları izlənilib, ifaçılar Nurlan Ordubadlı və Elvin Nasir vətənpərvərlik və qələbə ruhunda mahnılar səsləndiriblər.

**“Şərq qapısı”**

# Səlahiyyətli nümayəndə Culfada vətəndaşları qəbul edib



Yanvarın 12-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Culfa rayonunda sakinlərlə görüşüb.

Görüşdən əvvəl səlahiyyətli nümayəndə və Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini Ümummilli Liderimiz Heydər Əliyevin Culfa şəhərində ucalan abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.



Rayon sakinləri ilə görüşdə səlahiyyətli nümayəndə Fuad Nəcəfli sonuncusu 2 gün öncə olmaqla ötən ilin əvvəllərindən başlayaraq Culfada mütəmadi vətəndaş qəbullarının keçirildiyini diqqətə çatdırıb. Bildirib ki, bu görüşlərin nəticəsi olaraq sakinləri narahat edən problemlər araşdırılıb. Dövlət başçımızın müvafiq Sərəncamı ilə təsdiq olunan “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” bu problemlərin həllinə geniş imkanlar açıb. Ötən ili uğurla başa vuran Naxçıvanda, eləcə də Culfa rayonunda sözügedən Dövlət Proqramı əsasında bu ildən mühüm layihələr icra olunacaq.



Səlahiyyətli nümayəndə qeyd edib ki, 2023-cü il həm də illərdir, mübarizə apardığımız terrorizmə son qoymağımızla yadda qaldı. Müzəffər Ali Baş Komandanımızın qətiyyəti və rəşadətli Ordumuzun gücü sayəsində “Dağlıq Qarabağ” problemi məfhumu dünyanın siyasi gündəmindən birdəfəlik silindi. Bu gün bayrağımız bütöv və suveren Azərbaycanımızın hər bir bölgəsində dalğalanır. Bu il növbədənkənar prezident seçkiləri işğaldan azad edilmiş bütün ərazilərimizdə təşkil olunacaq. Fuad Nəcəfli hər kəsi böyük qələbə və bayram əhval-ruhiyyəsi ilə prezident seçkilərində iştiraka dəvət edib, rayon sakinlərinə fəaliyyətlərində uğurlar arzulayıb.



Sonra görüşdə iştirak edən Culfa rayon sakinləri ilə fərdi söhbət aparılıb, onların problemləri və təklifləri dinlənilib. Müraciətlərin hər birinin həlli istiqamətində qanunvericiliyin tələblərinə uyğun tədbirlərin görüləcəyi qeyd olunub.

**“Şərq qapısı”**

## Ali Məclisin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1 fevral-31 may 2023-cü il tarixdəki yaz sessiyasında 2 plenar iclas, 3 komitə iclası keçirilib, 4 qanun qəbul olunub, 1 qanunda dəyişiklik edilib, 2 qanun ləğv edilib, 4 qərar qəbul olunub.

1 iyun-30 sentyabr 2023-cü il tarixdə baş tutan növbədənkənar sessiyada 1 plenar iclas, 2 komitə iclası keçirilib, 3 qanun qəbul olunub, 3 qanunda dəyişiklik edilib, 4 qərar qəbul olunub.

2 oktyabr-30 dekabr 2023-cü il tarixdə baş tutan payız sessiyasında 9 plenar iclas, 6 komitə iclası keçirilib, 2 qanun qəbul olunub, 3 qanunda dəyişiklik edilib, 9 qərar qəbul olunub.



# Qoy ədalət həmişə haqlı olanla olsun

Parlaq qələbə ilə bitən böyük bir tarixi dönəmi arxada qoyub yeni hədəflərə doğru yönələn Azərbaycan tam suveren ərazimizdə keçiriləcək ilk prezident seçkilərinə və dünyanın ən böyük beynəlxalq tədbirinə – COP29-a hazırlaşdığı bir zamanda ötən illərin xronologiyasına qısa bir baxış uca ədalətin gec də olsa, güclü zəfərinə inamlarımızı bir daha möhkəmləndirdi. Xalqımız tarix yazan lider İlham Əliyevin ***"Biz mövqelərimizdən heç yerə qayıdan deyilik"*** bəyanatını izlədikcə ədalətə inanmağın nə qədər gözəl bir hiss olduğunu yaşayaraq gördü və yeni tarixi bir dövrdə yaşamağın daha da gözəl olacağı xəbərini hamılıqla paylaşdı. Çünki ədalət həmişə bizimlədir.

Bunun əksinə hələ də şərti olan sərhədin o tayında, Ermənistanda isə kimi xaricə köçmək üçün sənədlərini hazırladığı, kimi separatistlərə Fransada fəxri vətəndaşlıq almaq üçün pullar topladığı, kimi də Rusiyaya girişdən geri qaytarılan mallarını satmağa çalışdığı bir zamanda düçar olduqları həqqi-adil cəzanın bölüşdürülməsi əsl problemə çevrilib. Azərbaycanla müharibədə uduzanın ayrı-ayrı ermənilər deyil, çürük "Ayastan" ideologiyası olduğunu hələ də başa düşməyən və bu da azmış kimi hər gün Baş nazirinin təzadlı çıxışlarından çaşbaş düşən erməni cəmiyyəti də baş verənlərin sanki Marsın qəzəbi, yaxud Kimin xəyanəti ucbatından olduğunu zənn edir, hər addımda ya Rusiyanı, ya da az qala uzaq Tanzaniyanı günahlandıraraq buradakı erməni icmasına lazımınca diqqət edilmədiyinə görə əməlli-başlı əks-kampaniya başladır. Yalan, yaltaqlıq və vandallıq əməllərinə görə ölüb yerə girən beş-on nəfər babat erməni də beləcə, sonunda bu kampaniyaya qoşulmaqla özlərinin Tiqranın ən layiqli nəvələri olduğuna inanıb, dolmadan balqabağa qədər hər şeyin vətəninin Ermənistan olduğunu deməkdən heç utanmırlar. Utanmaq bir yana, bu gün ermənilər üçün yenidən kiminsə qanadının altına sığınıb yeni revanşist xəyallara qapılmaq da bu cəmiyyətin sağalmaz xəstəliyi kimi vaxtaşırı metastaz verib hər kəsin ürəyini bulandırır. Nəticədə, sanki sonu görünməyən tunelin içinə girmiş kimi başlarını itirmiş erməni başbilənlər Günəşin Ağrı dağından çıxdığını, ya da batdığını seçə bilməyən yarasalar kimi sağa-sola vurnuxurlar. Parlaq işıqdan gizlənib həqiqəti görmək istəməyən kor gözlər üçün isə "dəmir yumruğ"un son çarə olması, beləcə, uca ədalətin bir təntənəsi olaraq ermənilərin heç zaman yadından çıxmayacaq.

2024-cü il ölkəmiz üçün yeni yolun başlanğıcı, bütöv, tam suveren ərazimizdə yaşıl iqtisadiyyat, yenidən qurulan Qarabağ, Naxçıvanı böyük torpağa addım-addım yaxınlaşdıran Zəngəzur, ekologiya, turizm, idman və mədəniyyət ili olacaq. Azərbaycanlılar yeni ildə öz qalib Prezidentinin ətrafında daha sıx birləşib, haqlı nailiyyətləri ilə fəxr edərək yeni hədəflərə çatmaq üçün bütün güclərini ortaya qoyacaqdır. Həmişə Uca Haqqın ədalətinə inanmış Azərbaycanın yeraltı və yerüstü zənginlikləri dünyanın milyonlarla insanının evinin çırağı, süfrəsinin bərəkəti olacaq. Bu ildən artıq Yaşıl dünya naminə səfərbər olmuş 10 milyonluq Azərbaycanın torpağı, Günəşi, dənizi, suyu, havası təkcə özünün deyil, yüz milyonlarla dünya əhalisinin də sağlam həyatı üçün əsl sərvətə dönəcək. Dünya, Avropa görəcək ki, bir zamanlar Azərbaycana qarşı edilmiş hər bir hücum, verilmiş hər bir ədalətsiz qərar indi nə qədər onlar üçün utandırıcıdır. Yeri gələndə öz doğma qardaşını belə od-alova qərq edən rus canavarı qarşısında həmrəy ola bilməyib tipik Avropa ikili standartına qurban getmiş qoca qitənin demaqoqlarının bu gün soyuqdan donmamaq üçün Azərbaycanın qapısında növbəyə durmaları da, bu mənada, otuz il əvvəlki haqsızlıqlar qarşısında sanki Uca Ədalətin bir başqa cəzasıdır, deyilmi?! Odur ki, bu gün Parisin siçanlar oynayan ara küçələrində Azərbaycana qarşı kirli planlar cızan göygöz müsyölər bir gün Jordan ağa kimi başınagözünə döyəndə daha çox gec olacağını unutmamalıdırlar. Ədalət tərəzisinin qarmağı iti, çəki daşı da çox ağır olur axı!

Azərbaycan özünün müstəqilliyə, tam suverenliyə gedən yolunda çox qurbanlar verib, olmazın haqsızlıqlarla qarşılaşıb, çətinliklərə sinə gərib. Lakin həmişə Uca Haqqın ədalətinə sığınan xalqımız bütün bəlalara qarşı səbir edib, həmişə rəhbərinin ətrafında sıx birləşməyi bacarıb. Bununla da xalqının xilaskarı Ulu Öndər Heydər Əliyev, suverenliyinin memarı Prezident cənab İlham Əliyev kimi liderlərin rəhbərliyi altında yaşayıb mübarizə aparmaqla Azərbaycan böyük ƏDALƏTƏ qovuşub. Bu isə hazırkı çətin dünyada, əslində, hər kəs üçün vacib olan ədalətli həyat, ədalətli siyasət, ədalətli mübarizə, ədalətli mühakimə, ədalətli mövqe, ədalətli şərtlər, ədalətli zəfər və ədalətli sülhdür. Yanvarın 10-da dövlət başçımızın ölkə telekanallarına verdiyi üçsaatlıq müsahibədə tam iyirmi yeddi dəfə işlətdiyi "ədalət" kəlməsi də məhz buna görə bizim üçün bu qədər yaxındır.

*Qoy ədalət həmişə haqlı olanla olsun!*

**Əli CABBAROV**

*(əvvəli 2-ci səhifədə)*

Mən dedim ki, mən onların mühakimələrini başa düşə bilmədim. Bununla yanaşı, onlar iki dəfə mənim qayıtmağıma mane oldular.

Və onda, həm Moskvadakı, həm də Bakıdakı rəhbər şəxslər mənim geri qayıtmağımı istəmirdilər. 1990-cı ilin mayında, bir gün, nəhayət, mən geri qayıtmağa qərar verdim. Mən Moskvanı tərk etməmişdən bir gün əvvəl, onlar mənim yaxın tanışlarımdan birini – bir jurnalisti öldürdülər. Dostumun adı Xanbabayev (Əjdər Xanbabayevi nəzərdə tutur – S.A.) idi. Onlar onu öldürdülər, çünki o mənimlə birbaşa telefon əlaqəsi saxlamışdı və mən ona nə vaxt Bakıya qayıdacağımı demişdim. O, Bakıdakı ziyalıların yanına getdi və onları bir yerə topladı, beləliklə, onlar məni qarşılamaq üçün aeroporta gəlməli idilər. Həmin gecə, o, evə qayıdarkən, onun avtomobili saxlanıldı. Onun başına tapança ilə atəş açıldı və öldürüldü.

Azərbaycanda rəhbərliyə yaxın olan adamlar qardaşıma mənə bu məlumatı çatdırmağı dedi: "Əgər Heydər Əliyev bura gələrsə, o da öldürüləcək". Beləliklə, mən Bakıya uçuşumu təxirə salmağı qərara aldım. Mən vəziyyəti öyrəndim və başqa şəxsin adına bileti almağı bacardım. Mən gizli aeroporta aparıldım.

Mən təyyarəyə minəndə onlar mənim kim olduğumu başa düşdülər, O vaxt mən tanınmamaq üçün üzümü gizlədirdim. Beləliklə, mən Bakıya bu cür gəldim. Ancaq burada da yaşamağa onlar mənə icazə vermirdilər. Mən Bakıda yalnız üç gün qaldım və sonra Naxçıvana uçdum. Orada mən üç il müddətində yaşadım. Mən 1993-cü ildə Bakıya qayıdana qədər Naxçıvanda yaşadım.

***Betti Bleyer***: – O vaxt bütün həyatınızı verdiyiniz bu sistem sizə üz çevirəndə, yəqin ki, özünüzü məyus hiss etmisiniz?

***Heydər Əliyev:*** – Çox məyus olmuşam. Mənim ürəyimdə hələ də böyük bir yara var. Buna görə də mənim bu sistemə qarşı böyük nifrətim yarandı. Bu sistem insanları səhv şeyləri, pis şeyləri etməyə məcbur etdi.

Mən Azərbaycanın başçısı kimi burada 14 il işləmişdim. Məndən sonra rəhbərlikdə olan bütün insanlar Bakıda olduğum dövrdə mənim işçilərim olmuşdu. Hətta onlar da mənim Azərbaycana qayıtmağımı istəmədilər. Mən Bakıya gələndə, onlara zəng etməyə cəhd etdim, baxmayaraq ki, mən dünyanın ən güclü dövlətlərindən birində yüksək vəzifələrdən birini tutmuş şəxs idim, ancaq heç kim mənimlə danışmaq istəmədi.

Mən həmin şəxs idim ki, Kommunist Partiyası binasını, indiki Prezident Aparatını inşa etdirmişdim. Buna görə deyirəm ki, siz jurnalınızda binanın böyük bir şəklini verin. Onlar məni bu binanın yaxınlığına buraxmadılar. Mənim indi əyləşdiyim bu otaqda başqa insanlar otururdu. Mən buranı tərk etdikdən sonra beş və ya altı şəxs bu vəzifədə əyləşdi. Məhz ona görə də mənim ürəyimdə ağrılı çox hisslər vardı. Ancaq mən onları unutmağa cəhd etmişəm.

Burada sizin yadda saxlamalı olduğunuz iki məqam var. Onlardan biri hakimiyyət orqanlarının gücüdür və o biri isə xalqdır. Xalq mənə olan münasibətini heç vaxt dəyişməmişdi. Ancaq bürokratiyada, burada və Moskvada mənimlə uzun illər işləyən insanlar mənə münasibətlərini dəyişdilər. Siz Parlament binasını tanıyırsınız – o binanı da mən tikdirdim. Mən burada işləyəndə və Parlamentdə sessiyada iştirak edəndə, binaya daxil olanda hamı məni qarşılamaq üçün ayağa qalxardı.

Mən Moskvadan Naxçıvana qayıdanda, Naxçıvandan Azərbaycanın Parlamentinə məni deputat seçdilər, Parlamentin sıravi deputatı. Mənim, hətta Bakıda mənzilim də yox idi. Mən qardaşımın kiçik ikiotaqlı mənzilində yaşayırdım. Və mən həmin eyni Parlament binasına insanların seçdiyi, etimad göstərdiyi Parlamentin üzvü kimi daxil oldum. Onlar məni görəndə, üzlərini çevirərdilər. Bəziləri uzaq gedərdi. Mən iclas zalında əyləşməli idim və Mütəllibov isə prezident kimi orada yüksəkdə oturardu – mənim vaxtilə yüksəltdiyim insanların hamısı da onların arasında idi. Lakin onların heç biri məni alqışlamadı. Onlar mənimlə danışmadı. Bu hallar məni incitdi. Mən yerimdən danışmaq üçün icazə istədim, lakin onlar mənə icazə vermədilər.

1991-ci ilin fevral ayı idi, Sovet İttifaqının süqutundan əvvəl, ilin sonunda. Mən Parlamentdə söz istədim və onlar mənə söz vermək istəmədilər. Beləliklə, mən tribunaya qalxdım; onlar mənim tribunada danışmağıma mane ola bilmədilər.

***Betti Bleyer***: – Onda siz hələ də Kommunist Partiyasının üzvü idiniz?

***Heydər Əliyev***: – Xeyr, mən Moskvada olarkən Kommunist Partiyasından artıq istefa vermişdim. Mən çıxış etdim və dedim: "Azərbaycan müstəqil olmalıdır. Sovet İttifaqı dağılır və Kommunist Partiyası hakimiyyətdən getməlidir. Bu 10 fevral 1991-ci il idi. Lakin onlar çıxışımı davam etməyə icazə vermədilər. Zaldakı insanlar fit çalaraq "qaydaya riayət edin" sözlərini yeknəcəq olaraq təkrarlayırdı və onlar hüquqmdan istifadə etməyə çoxlu maneçilik yaratdılar. Bu haqda bir film var. Və iclas zalında əyləşən insanların 95 faizi o adamlar idi ki, onları mən irəli çəkmişdim. Ancaq mən Bakının küçələri ilə gedəndə, 100 metr gəzə bilərdim ki, görürdüm minlərlə insan mənim ardımca gəlməyə başlayırdı.

Məhz ona görə, mən deyirəm ki, xalq mənə münasibətini heç vaxt dəyişmir. Azərbaycan 1993-cü ildə yenidən ixtişaşla üzləşəndə insanlar ümidlərini və üzlərini yenidən mənə tutdular. Bizim problemlərimizi həll etmək üçün çiyinlərində hökumətin məsuliyyətini götürəcək başqa heç bir şəxs yox idi. Buna görə də onlar məni Naxçıvandan buraya – Bakıya gətirdilər..

***Betti Bleyer***: – Bir halda ki, siz sosialist sistemində və indi kapitalist sistemində ən yüksək vəzifələrdən birini tutan dünyada nadir şəxslərdən biri olmusunuz. Hər iki sistemi necə qiymətləndirərdiniz? Və hər ikisinin bəzi nöqsanları hansılardır?

***Heydər Əliyev***: – Siz bilirsiniz ki, bu çox mürəkkəb bir sualdır. Mən buna cavab vermək üçün ən azı yarım saat sərf etməliyəm. İcazə verin, deyim ki, sosialist sistemi insanlara çoxlu nailiyyət və müvəffəqiyyət gətirdi. Məsələn, 1920-ci illərdə Azərbaycanda ən azı insanların 90 faizi savadsız idi. Sovet sisteminin nəticəsində, insanlar nisbətən qısa vaxt ərzində də təhsil almaq imkanına malik oldular. Bakı Dövlət Universitetinin 1919-cu ildə (sovet hakimiyyətinin qurulmasından əvvəl) əsası qoyuldu, lakin sovet dövründə daha çox universitetlər yaradıldı. Çoxlu məktəblər tikildi. Çoxlu xəstəxanalar tikildi. Çoxlu mədəni mərkəzlər tikildi. İqtisadi potensial Azərbaycanda inkişaf etdirildi – fabriklər, kanallar, yollar. Biz bu şeyləri unutmamalıyıq. Biz onları dana bilmərik. Doğrudur, bu sistem çoxlu qantökmənin nəticəsində yaradıldı. Kommunist Partiyası çoxlu repressiya və qırğın həyata keçirdi. Bununla bərabər cəmiyyət məhv olmadı.

Baxmayaraq ki, Sovet İttifaqı, nəticədə, 10 il əvvəl dağıldı, insanlar, xüsusilə elm, təhsil, mədəniyyət və səhiyyə sahələrindən yararlandı. Beləliklə, o sistemin çoxlu müsbət cəhətləri var idi. Ancaq sonda, sosialist sistemi kapitalizm ilə rəqabət apara bilmədi. İkincisi, sosialist dövləti diktaturaya əsaslanırdı. O yaşaya bilmədi. Əlbəttə, insanlar yaxşı yaşayardı, ancaq onların qətiyyən heç bir azadlıqları yox idi.

Təsəvvür edin, əgər onlar çox illər ərzində bu sistemə xidmət etmiş mənim kimi şəxslə pis rəftar edirlərsə, kim belə sistemə bel bağlaya və etibar edə bilər? Mən bunu ona görə deməm ki, bu mənim şəxsi vəziyyətim idi. Mənim kimi pis rəftar edilən milyonlarla insanlar vardı. Çoxlu ədalətsizliklər həyata keçirildi. İnsanlar heç bir fikir və ya danışmaq azadlığına malik deyildi.

Kapitalist sisteminin də, hər iki – müsbət və mənfi cəhətləri var. Dünyada heç bir ideal sistem yoxdur. Məncə, bu fikri Çörçill deyib: "Demokratiya ən yaxşı siyasi sistem deyildir, ancaq insanlar yenə də daha yaxşı bir sistem yaratmalıdır". Demokratiya ilə siz ədalət baxımından hər şeyə yaxınlaşırsınız.

Biz köhnə sistemdən imtina etmişik. Mən özüm bunu tamamilə şüurlu şəkildə etmişəm və Azərbaycan, şübhəsiz, hüquqi azad və bazar iqtisadiyyatına əsaslanmış demokratik dövlət olacaq.

***Betti Bleyer***: – Azərbaycan Rusiya, İran, Ermənistan, Türkiyə və Gürcüstanla əhatə olunmuş kiçik ölkədir və Azərbaycan milli ehtiyatlarını qorumaq üçün beynəlxalq münasibətlərdə tarazlığı saxlamağa həmişə ehtiyac duyur. Sizin 21-ci əsrdə Azərbaycanın gələcək liderlərinə tövsiyəniz nədir? Onlar bu tarazlığı saxlamaq üçün nə edə bilərlər?

***Heydər Əliyev***: – Onlar mənim əsasını qoyduğum siyasəti davam etdirməlidirlər. Əgər onlar belə edərsə, onda müvəffəqiyyət qazanacaqlar. Əgər etməzlərsə, onda Azərbaycan çox faciə ilə üzləşəcək. Hər bir ölkənin maraqlarını nəzərə almaq lazımdır. Siz bəzi ölkələrlə dost, bəziləri ilə düşmən ola bilməzsiniz, baxmayaraq ki, bu əksər ölkələrin siyasətidir. Azərbaycan hər hansı bir ölkə ilə düşmən olmaq istəmir. Eyni zamanda biz başqa ölkənin siyasətinin qurbanı da olmayacağıq. Azərbaycan öz müstəqil siyasəti var. Bununla yanaşı, biz Avropa və Amerika ilə yaxşı əlaqələri inkişaf etdiririk və öz milli mənsubiyyətimizi və milli ehtiyatlarımızı qoruyaraq onların təcrübələrindən faydalanmağa çalışırıq.

*İngilis dilindən tərcümə etdi:*
**Süsənbər AĞAMALIYEVA**
*filologiya üzrə fəlsəfə doktoru*

# Bütöv Azərbaycan naminə tarixi gün



Ötən il dekabrın 7-si ölkə həyatının, regionun siyasi gündəmində ən əhəmiyyətli hadisə ilə yadda qaldı. Dövlət başçısının həmin gün imzaladığı müvafiq Sərəncama əsasən Seçki Məcəlləsində müəyyən olunmuş qaydalara tam uyğun növbədənkənar prezident seçkilərinin 2024-cü il fevralın 7-nə təyin olunması dünyanın hazırkı geosiyasi mənzərəsi fonunda atılmış mütərəqqi addım kimi dəyərləndirildi. Xüsusilə ərazi bütövlüyü və suverenliyinin tam bərpasından sonra Azərbaycanın siyasi arenada qazandığı nüfuzu həzm edə bilməyən bəzi ermənipərəst Qərb ölkələrinin regionda qarışıqlıq yaratmaq cəhdlərini, eyni zamanda ölkəmizin post-müharibə dövründə qarşıya qoyulan hədəflərini nəzərə alsaq, bu addımın mütərəqqiliyi daha da ön plana çıxır...

Ölkəmizdə 1993-cü ildən bəri daha da təkmilləşdirilən seçki prosesi qanunvericilik çərçivəsində şəffaflığı, demokratikliyi ilə bu gün regionda özünəməxsus imic qazanıb. ***"Demokratiyanın əvvəli var, sonu yoxdur"*** – deyən, Ulu Öndər Heydər Əliyev siyasi xəttinin layiqli davamçısı cənab İlham Əliyev 2003-cü ildə xalqın böyük çoxluğunun səsini qazanmaqla Prezident seçildikdən sonra seçki prosesinin daha da şəffaflaşdırılması üçün müvafiq addımlar atdı. Xüsusilə də dövlət başçısının 2005-ci il mayın 11-də və oktyabrın 25-də imzaladığı sərəncamlar bu siyasi əhəmiyyətli prosesin standartlara uyğun, demokratik dəyərlər əsasında təşkilinə geniş imkanlar açdı...

Seçkilərdə exit-pollun tətbiqi, barmaqların gözə görünməyən mürəkkəblə işarələnməsi, müşahidəçilər dairəsinin genişləndirilməsi, qeyri-hökumət təşkilatlarının seçkiləri müşahidə etməsi üzərində məhdudiyyətlərin götürülməsi şəffaflığın təmin olunması istiqamətində atılan qətiyyətli addımlar kimi beynəlxalq müşahidəçilər, xarici kütləvi informasiya vasitələrinin əməkdaşları, ekspertlər tərəfindən hər zaman yüksək qiymətləndirilir. Bu baxımdan son prezident seçkilərində beynəlxalq müşahidəçilərin bir neçəsinin səsləndirdiyi bəyanatı xatırlatmaq yerinə düşər. Belə ki, həmin prosesdə yaxından iştirak edən İtaliya xarici əlaqələr komitəsinin üzvü Antonio Radze bildirmişdi ki, seçki məntəqələrində müşahidə aparılıb və heç bir qanun pozuntusu qeydə alınmayıb: "Seçki prosesi demokratik və şəffaf olub. Barmaq izinin skan olunması çox innovativ bir sistemdir, bununla heç vaxt rastlaşmamışdım. Bu gün xalqın İlham Əliyevin yüksək səs toplaması ilə bağlı bayram etdiyini gördüm. Azərbaycanın gələcəkdə daha da çiçəklənməsini arzu edirəm". Argentina parlamentinin üzvü, Cənubi Amerika parlamentlərarası birliyinin vitse-prezidenti Daniel Ramundo isə Azərbaycanın açıq ölkə olduğunu deyib: "Mənə məlumat verildi ki, yüksək səviyyədə təşkil edilən seçkilərdə saat $12^{00}$-dək seçici fəallığı 45 faiz olub. Deyə bilərəm ki, demokratiya bu ölkədə artıq tam bərqərar olub".

Milləti uçurumdan zirvəyə aparmaq amalı ilə ümumxalq məhəbbəti qazanan Ümummilli Liderimiz Azərbaycanın şanlı XXI əsr tarixinin yazılması naminə öz haqq yolunun layiqli davamçısını xalqına bu sözlərlə miras buraxdı: ***"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".*** Bəli, 2003-cü il oktyabrın 15-də seçki məntəqəsinə üz tutan hər bir azərbaycanlı Ulu Öndərə dərin sevgisini, Onun yoluna sonsuz sədaqətini göstərməklə həm də ölkəmizin işıqlı gələcəyinə, inamlı sabahına səs verdi. Və Prezident cənab İlham Əliyev seçki ərəfəsində verdiyi ***"Əgər mənə xalq etimad göstərərsə, mən Ulu Öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm"*** vədinə əməl edərək ölkəni böyük tərəqqi yoluna çıxardı. Azərbaycanda hüquqi-demokratik dövlət quruculuğu siyasəti daha da gücləndirildi, aparılan islahatlar iqtisadiyyatın, mədəniyyətin, təhsilin, səhiyyənin inkişafına təkan verdi. Beynəlxalq aləmdə mövqelərimiz xeyli möhkəmləndirildi, uğurlu diplomatik addımlar nəticəsində ölkəmiz nüfuzlu təşkilatlarda söz sahibinə çevrildi, o cümlədən BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi, beynəlxalq təşkilatların Ermənistanı işğalçı dövlət kimi tanımaqdan başqa çıxış yolu qalmadı.

***"Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır"*** ideyası Prezident İlham Əliyevin daxili siyasətinin ana xəttinə çevrildi, işsizlik halları minumuma endirildi, 2 milyondan çox yeni iş yerləri yaradıldı. Regionların sosial-iqtisadi inkişafına yol açan Dövlət proqramları qəbul edildi, ardıcıl şəkildə 4 milyondan çox insanı əhatə edən sosial islahat paketləri icra olundu, əməkhaqları, pensiyalar, müavinətlər dəfələrlə artırıldı, həssas təbəqədən olan vətəndaşların mənzil-məişət şəraitləri yaxşılaşdırıldı, maddi rifah halları yüksəldildi.

Ümummilli Liderin ***"İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir!"*** şüarı iqtisadiyyatımızın daha da şaxələndirilməsində, xarici ticarət dövriyyəsinin ilbəil artırılmasında özünü göstərdi. İnhisarçılıq hallarına son qoyuldu, sərbəst biznes mühiti formalaşdırıldı, yeni müəssisələr yaradıldı, ənənəvi istehsaldan innovativ istehsalata keçid təmin edildi. Ölkəmiz Cənub Qaz Dəhlizi layihəsinin aparıcı qüvvəsinə çevrilməklə, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi ilə beynəlxalq nəqliyyat sistemində mövqelərini gücləndirdi, Avropanın etibarlı enerji tərəfdaşına çevrildi. Neftdən gələn gəlirlər qeyri-neft sektoruna yatırıldı, xarici sərmayədarların ölkə iqtisadiyyatına cəlbi ilə bu sektorda canlanma yaradıldı, kənd təsərrüfatı sahələrinə elmi-tədqiqi yanaşmalar, innovativ texnologiyaların tətbiqi məhsuldarlığın, məhsul istehsalının həcminin artırılması ilə nəticələndi. Statistik rəqəmlərə də nəzər salanda görürük ki, ötən dövrdə qeyri-neft iqtisadiyyatı 4 milyard dollardan 41 milyard dollaradək artıb. Şaxələnmə baxımından prioritet olan strateji sahələrdə əlavə dəyər qeyri-neft sənayesində 4,7, turizmdə 19, informasiya və rabitədə 23, nəqliyyat sektorunda isə 5 dəfə böyüyüb. Ötən 20 ildə qeyri-neft məhsullarının ixracı 12 dəfə artaraq müstəqillik dövründə ilk dəfə 3 milyard dolları üstələyib. Ümumilikdə, 20 ildə Azərbaycan iqtisadiyyatı yüksək artım templəri nümayiş etdirib. 2003-2022-ci illərdə Azərbaycanda ümumi daxili məhsul 7,3 milyard dollardan 78,7 milyard dollara yüksəlib. 2003-2023-cü illərdə dövlət büdcəsinin xərcləri 1,2 milyard manatdan 36,6 milyard manata çatıb.

20 il ərzində gənclər, idman, təhsil sahələrində dünya standartlarına uyğun maddi-texniki, metodiki baza daha da gücləndirildi, onlarla idman kompleksləri, təhsil ocaqları tikilib istifadəyə verildi və nəticədə həm fiziki, həm də mənəvi cəhətdən güclü, intellektual gənclik formalaşdı. Beynəlxalq olimpiadalarda, yarışlarda, idman oyunlarında qazanılan nailiyyətlərlə ölkəmizin imici daha da yüksəldi, bayrağımız ən ali kürsülərdə dalğalandı, himnimiz Avropadan Amerikaya qədər hər kəsi ayağa qaldırdı. Azərbaycan birinci Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, Avroviziya mahnı müsabiqəsinə layiqli şəkildə ev sahibliyi etdi, Bakıdan tolerantlıq səsi ucaldı, mədəni, mənəvi dəyərlər nümunəsi göstərildi bütün dünyaya...

Prezident cənab İlham Əliyevin apardığı uğurlu xarici və daxili siyasət 2018-ci il 11 aprel seçkilərindən sonra özünün 5 illik zirvə nöqtəsinə yetişdi. İllərdir, ordu quruculuğu istiqamətində görülən işlər, reallaşdırılan islahatlar məntiqi sonluqla nəticələndi, xalqımızın ürəyində qubar bağlayan Vətən həsrətinə son qoyuldu, beynəlxalq təşkilatların, dünya hegemonlarının biganə yanaşdığı Qarabağ dərdinə çarə tapıldı. 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək xalq-ordu-lider birliyi "dəmir yumruğ"a çevrilərək bədxahların başına endirildi, məğrur Azərbaycan əsgər-zabiti düşmənin keçilməz sandığı Füzuli səddindən keçib alınmaz dediyi Şuşa qalasınadək şərəfli zəfər yolu yeridi. Böyük Qələbəyə aparan bu yol uydurma erməni mifini sulara qərq edən yenilməz ordumuzun qüdrəti ilə yanaşı, Müzəffər Ali Baş Komandanın siyasi iradəsi, qətiyyəti, xalqımızın həmrəyliyi ilə nurlandı, əbədiyyətlik qazandı. 2023-cü il sentyabrın 19-20-də 24 saatdan az bir müddətdə aparılan lokal xarakterli antiterror tədbirləri ilə isə ölkəmizin ərazi bütövlüyü, suverenliyi tam təmin edildi, bir nəfər belə mülki insanın burnunun qanamadığı bu əməliyyatla Azərbaycan vaxtilə Xocalı faciəsinə göz yuman erməni havadarlarına insanlıq, haqq-ədalət dərsi keçdi...

***Otuz ildən sonra öz milliliyinə, kimliyinə yenidən qaytarılan qədim ata-baba torpaqlarımızın hər qarışı bu gün dirçəldilir, yenidən qurulur, bir vaxtlar öz yurdundan didərgin düşən soydaşlarımız evlərinə geri dönür. Sönən ocaqların odu alovlanır, barıt qoxan bağ-bağçalar xoş rayihəyə bürünür, solan qönçələr allanır, yad küylərin dolaşdığı küçələrdə şən-şaqraq uşaq sədaları eşidilir, viran olunan məscidlərdən azan səsi ucalır, məktəblərdə, mədəniyyət ocaqlarında milli-mənəvi dəyərlər aşılanır, təbliğ edilir, yaşadılır... Və ən nəhayəti isə odur ki, xalqımız qalib kimi bütövləşən Azərbaycan naminə ilk dəfə seçkiyə hazırlaşır. Soydaşlarımız daha məcburi köçkün kimi deyil, öz ana torpağı, ata yurdu Laçında, Zəngilanda, Füzulidə, Qarabağda onlara bu böyük xoşbəxtliyi, əbədi qalibiyyəti yaşadan, ərazi bütövlüyünü təmin edən Müzəffər Prezidentini seçməyə amadədir...***

**Nail ƏSGƏROV**



**Baş redaktordan**
**Sara ƏZİMOVA**

# Qalib ölkənin seçiciləri kimi hamılıqla seçkilərdə iştirak edək

Azərbaycan tarixinin təqviminə bir bayram da əlavə olunmasının – "Zəfər seçkisi"nin qürurunu yaşayacağıq. Məlumdur ki, son illərdə xalqımızın tarixində təmtəraqla qeyd edilən əlamətdar və bayram günlərinin sayı xeyli artıb. Böyük Qələbə ilə başa çatan İkinci Qarabağ müharibəsindən sonra təqvimimizə yazılan bir sıra hadisələr artıq bayram kimi qeyd olunmağa başlanılıb. Zəfər günü, şəhər günləri və digər belə əlamətdar tarixlər mövcud olan bayramlarımızla bərabər hər birimizdə yüksək əhvali-ruhiyyə, xoş ovqat yaratmaqla xalqımızın haqq işinin qələbə çalmasının rəmzi kimi xatırlanır.

Bu günlərin üzərinə daha biri isə fevral ayının 7-də yazılacaq. Əgər 2024-cü ilədək keçirilən seçkilərdə doğma Qarabağ, işğal altında olan digər ərazilərdə yaşayan vətəndaşlarımız doğulduqları, qeydiyyatda olduqları ünvanlarda deyil, ölkəmizin başqa ərazilərində səs verirdilərsə, bu il onlar işğaldan azad edilərək yenidən qurulan və qurulmaqda olan yaşayış məntəqələrində öz səsvermə hüquqlarından istifadə edəcəklər. Bəli, prezident seçkilərinin ilk dəfədir ki, müstəqil Azərbaycanın bütün ərazilərində, kənd və şəhərlərində keçirilməsi hamımızda böyük fəxarət hissi yaradıb. Təsdiq olunan seçki dairələrinin siyahısında biz Xankəndi, Kəlbəcər, Şuşa-Ağdam-Xocalı-Xocavənd, Zəngilan-Qubadlı Seçki dairələrinin adlarını oxuduqca qürurlanır və o günü səbirsizliklə gözləyirik.

Biz ötən il ərazi bütövlüyümüzün Xankəndi zirvəsini fəth etdik. Belə ki, sentyabr ayında keçirilən qısamüddətli antiterror tədbirləri sayəsində suverenliyimiz tam bərpa olundu. Bununla da Azərbaycan qalib xalq, qalib ölkə kimi adını tarixə yazdırdı. Bu gün Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə Azərbaycan Bayrağının dalğalanması milli ləyaqət təntənəsidir.

Bu təntənənin fevralın 7-də də yaşanacağı şübhəsizdir. Ona görə ki, ölkəmizdə keçiriləcək növbədənkənar seçki Azərbaycan tarixində daha bir möhtəşəm hadisə kimi yadda qalacaq. Hər ailənin seçki hüququ olan hər bir üzvünün səsi bizim gələcəyimizə verəcəyimiz səsdir. 7 fevral 2024-cü il tarixi təqvimimizdə ən əlamətdar bayram olacaq.

Qoy bütün dünya Şuşada, Xankəndidə bizim birliyimizin bir daha şahidi olsun. Əminik ki, bütün bölgələr kimi Naxçıvan Muxtar Respublikasında yaşayan sakinlər də hamısı bir nəfər kimi seçkilərdə iştirak edəcək. Azərbaycan xalqı bu dəfə də öz seçim hüququndan istifadə etməklə fəallıq göstərəcək, ölkəmizin gələcəyi naminə inkişafa, sosial rifaha, xoşbəxt sabahlara səs verəcəkdir. Yəni bütövləşmiş, Qarabağ qüruru özünə qaytarılmış bir qalib ölkənin qalib vətəndaşları, qalib seçiciləri kimi Azərbaycanın gələcəyinə səs verəcəklər. Ən güclü seçim xalqındır.



Paytaxt Bakıdan
"Şərq qapısı"na yazırlar

# BÜTÖV VƏTƏN və QALİB XALQ naminə

Bu həftə Prezident cənab İlham Əliyev yerli televiziya kanallarına növbəti dəfə müsahibə verdi. Kifayət qədər önəmli məqamlara toxunulan, xüsusilə baş verən son siyasi proseslərə işıq tutan müsahibədə ölkə başçısına ünvanlanan suallardan biri də növbədənkənar prezident seçkilərini şərtləndirən əsas amillərlə bağlı idi.

Nəzərə alsaq ki, ölkə başçısının çıxışları hər zaman xüsusi əhəmiyyətə malikdir – belə müsahibələrdə hər bir cümlənin ciddi xəbər əhəmiyyəti var və səslənən bütün fikirlərin ölkənin milli maraqlarına xidmət etdiyini hər bir diqqətli izləyici, dinləyici, oxucu görür, duyur, bilir. Onun müzəffər lider olaraq xalq tərəfindən sevilməsinin əsas səbəblərindən biri də hər zaman sözünün arxasında əməlləri ilə dayanmasıdır.

Etiraf etməliyik ki, bir çox vətəndaşımız onun sözünün əsl gücünü 44 günlük Vətən müharibəsində xarici KİV-lərə verdiyi müsahibələrdə, xalqımızın və bütün dünyanın qarşısında qətiyyətli çıxışlarda özləri üçün yenidən "kəşf ediblər". Bəzi "gecikmələrə" görə suverenliyə – Qarabağın işğaldan azad olunacağına inamını uzun illər ərzində itirməkdə olan vətəndaşı anlamaq olar. Təsəvvür edin ki, 2020-ci ildən öncəki, Qarabağın itirilməsindən sonrakı hər hansı ildə Prezident çıxış edir, ölkəmizə qarşı təxribat ehtimallarından danışır, dövlətçiliyimizə təzyiqlərdən bəhs edir, Prezident-xalq birliyinin önəmini, Şuşada, Laçında gec-tez bayrağımızın dalğalanacağını növbəti dəfə inamla vurğulayır və ordu quruculuğunun vacibliyindən, bu istiqamətdə görülən işlərdən bəhs edir. Həmin vaxt bir çoxumuz üçün belə çıxışlar adi görünsə də, zaman bizə Onun tərəfindən deyilmiş heç bir kəlmənin boş yerə ifadə olunmadığını göstərdi. Zaman bizə həm də onu anladacaqdı ki, bu adi görünən çıxışlarda, səslənən təkrarlarda belə bizim duymadığımız, çox vaxt məqsədli olaraq bəlli edilməyən, suveren Azərbaycan naminə, dövlətçilik naminə, Qələbə naminə mübarizə varmış. Ağızdan çıxan hər söz, hər kəlmə BÜTÖV VƏTƏN və QALİB XALQ naminə ola bilərmiş...

Zaman, xüsusilə qələbədən sonrakı dövr bizə həm də onu anlatdı ki, Prezidentin müsahibələrində səsləndirdikləri qədər, bu və ya digər səbəblərdən deyə bilmədiyi də önəmlidir və bu çıxışlarda Vətəni sevən hər kəsə çatdırılan, açıq duyula bilən Vətən naminə çağırışlar var.

Növbədənkənar prezident seçkilərini şərtləndirən əsas amilləri izah edərkən birinci səbəb olaraq bunu yeni dövrün başlanğıcı ilə əlaqələndirən dövlət başçısı elan olunmuş seçkilərin bu yeni dövrə xeyir-dua verəcəyinə əminliyini vurğuladı. O bunu həm də yeni missiyanın başlanğıcı kimi dəyərləndirdi.

Məhz burada diqqətimi çəkən bir məqama da nəzəri yönəltmək istəyirəm. Nəzərə alsaq ki, Prezidentin natiqlik bacarığı, müxtəlif dillərdə fikirlərini rahatlıqla ən yüksək səviyyədə ifadə etməsi heç bir halda müzakirə mövzusu deyil; o bu imkanlardan istifadə edərək beynəlxalq ictimaiyyətin, KİV-in önəmli mövzulara diqqətini lazımi qədər cəlb etməyi bacarır – belə olan halda bir suala cavab ətrafında eyni sözün müxtəlif cümlələr daxilində beş dəfə səslənməsi diqqətimi xüsusilə cəlb etdi. Söhbət "sakitləşmə" sözündən gedir.

***Sitatları oxuyaq:***

*"Cəmiyyətdə elə bir sakitləşmə ovqatı da yaradılmamalıdır. Birincisi, biz hər zaman çox ayıq olmalıyıq, çünki bizə qarşı olan hərəkət, dediyimiz bu məsələlərlə bitməyəcək, bundan sonra da davam edəcək. Çünki biz dünya miqyasında çox böyük layları tərpətdik. Bəlkə də, təhlilçilər görürlər ki, bizim Zəfərimizin bəzi ölkələr üçün fəsadları onlara çox baha başa gəlib. Böyük layları tərpətdik biz. Elə bir Zəfər çaldıq ki, bu, lokal əhəmiyyətli məsələ deyil. Bu, bir növ beynəlxalq gündəliyin əsas məsələlərinin birinə çevrilibdir. Təbii ki, bizə qarşı olan mənfi münasibət, ənənəvi mənbələrdən gələn mənfi münasibət dayanmayacaq".*

*"Ona görə biz heç vaxt sakitləşməməliyik və mən, xatırlayırsınızsa, İkinci Qarabağ müharibəsindən sonra demişdim və bunu da etdik, biz daha güclü ordu yaratmalıyıq".*

*"Ona görə cəmiyyətdə sakitləşmə olmamalıdır. Demirəm, hər an biz fikirləşməliyik ki, yeni müharibə olacaq. Yox, mən əminəm ki, olmayacaq və əlimdən gələni edəcəyəm ki, olmasın. Yetər, müharibələr kifayətdir. Ancaq yeni konseptual inkişaf strategiyamız, milli ideologiyamızın yeni istiqamətləri və əldə edilmiş uğurlarla sakitləşmək sanki müəyyən durğunluğa gətirib çıxara bilər. Bu, ayrı bir böyük söhbətin mövzusudur. Bəlkə, nə vaxtsa ayrıca bu məsələ ilə bağlı da biz danışarıq. Amma hər halda sualınıza cavab verərək deməliyəm ki, bəli, yeni dövr başlayır və əminəm, bu dövr də ölkəmiz üçün uğurlu olacaq".*

*"Yəni biz heç vaxt sakitləşə bilmərik. Bizim ordu quruculuğu prosesi davam edəcək və Ermənistan da bilməlidir, o, nə qədər silah alsa da, onlara nə qədər ürək-dirək versələr də, əgər, bizə qarşı hər hansı bir təhlükə mənbəyi olsa, biz dərhal o təhlükə mənbəyini məhv edəcəyik. Mən bunu gizlətmirəm ki, sabah heç kim deməsin, nəsə gözlənilməz oldu. Qoy eşidən eşitsin ki, biz görsək, bizə qarşı real təhlükə yaransa, biz preventiv addımlarla o təhlükəni istənilən nöqtədə məhv edəcəyik".*

Düşünürəm ki, məhz, xüsusilə indiki məqamda bütün bunlar, cənab Ali Baş Komandanın cəmiyyəti, bütün vətəndaşları ayıq-sayıq olmağa, seçki prosesinə məsuliyyətə dəvəti ola bilər?! Nəzərə alaq ki, eyni müsahibədə, eyni sual altında cənab Prezident detallara varmadan yeni konseptual inkişaf strategiyamızdan, milli ideologiyamızın yeni istiqamətlərindən, yeni hədəflərdən qısaca bəhs edir. Necə ki illər öncə çoxlarından fərqli olaraq O, suveren Azərbaycanı, işğaldan azad olunmuş Qarabağı görürdü, hamımızdan daha çox inamlı və ümidli idi – ona ümidlərimiz bizə uzaq görünənlərin gerçəkləşməsini yaşatdı, deməli, bu məsələdə də Ona, Onun hər sözünə güvənməli, bu yeni mərhələdə daha güclü Azərbaycan üçün məsuliyyətimizi bir vətəndaş olaraq anlamalıyıq.

Haşiyə çıxaraq sadə bir müqayisə aparsaq, dövlətimizin başçısı ailəsini sevən, onunla nəfəs alan, onun hər bir fərdinin yolunda bütün fədakarlıqlara hazır olan atalara bənzəyir. O atalara ki təkcə gələcəyi görməklə kifayətlənmir, onlar həm də gələcəyi qururlar – yüksək səviyyədə təhsil, təlim-tərbiyə verərək ailəsini, övladlarını hər vəchlə qoruyaraq. Bu mənada, bir sual ətrafında sadə vətəndaşa ünvanlanan bu önəmli məqam heç də adi bir ötəri nüans – təsadüfi təkrarlar sayılmamalıdır.

Prezident eyni sual ətrafında cəmiyyəti açıq müzakirələrə də dəvət edir: *"Bütövlükdə, hesab edirəm ki, cəmiyyətdə də bu barədə, yəqin, müzakirələr gedəcək. Bizim əsas milli ideyamız ərazilərimizi azad etmək idi. Yəni bütün xalq bu ideya ətrafında, bu amal ətrafında birləşmişdi, biz bunu artıq əldə etmişik. Ona görə gələcək inkişafla bağlı, əlbəttə ki, mənim fikirlərim var və bir çox hallarda onlar həlledici olacaq, təbii ki. Ancaq mən əsl mənasında, cəmiyyətdə də bu məsələ ilə bağlı diskussiyalar getsin, siyasətçilər, politoloqlar, elm adamları, ziyalılar, yəni bizim gələcək inkişafımızla bağlı əsas milli ideya və ideyalarımız nə olmalıdır. Bu, bir ictimai müzakirə mövzusu olmalıdır".*

Bəli, bu gün ölkə başçısı Azərbaycanın gücünə güc qatmaq üçün çalışır. Yeni mərhələdə də xalqına arxalanaraq kəsişən böyük güclər qarşısında öz sözünü – həqiqəti deməyi bacarır. Cənab Prezidentin təbirincə desək: *"...hər şey göz qabağındadır. Sadəcə olaraq, onu demək istəyirəm ki, bugünkü Azərbaycan, sözün əsl mənasında, dünya miqyasında güclü ölkələr sırasındadır. Hesab edirəm ki, bu həm beynəlxalq aləmdə, həm regionda, eyni zamanda daxili siyasət prioritetlərinin düzgün seçilməsində bir çox ölkələr üçün nümunə ola bilər. Bu təkcə mənim fikrim deyil, mənim bəzi həmkarlarım da bu barədə kifayət qədər açıq danışıblar".*

**Ceyhun ZƏRBƏLİYEV**

# Mədəniyyət xalqları birləşdirən etibarlı körpüdür

Köşə

*Ancaq Fransa bunu bacarmır*



Bülbül QULİYEVA

Tarixboyu Azərbaycan xalqının yaşatdığı mədəniyyət nümunələri dünya ölkələri tərəfindən yüksək qiymətləndirilib. Eyni zamanda Azərbaycan digər dövlətlərin maddi mədəniyyət nümunələrinə qarşı hər zaman tolerantlıq göstərib. Ancaq, təəssüflər olsun ki, çox zaman bunun qarşılığını görmürük. Son günlər Fransanın Evian şəhərindəki "Azərbaycan parkı"nda Xan qızı Natəvanın heykəlinin sökülməsi haqqında qərarın qəbul edilməsi bunun ən gözəl sübutudur.

Qeyd edək ki, 2017-ci ildə İsmayıllı və Fransanın Evian-Le Ba şəhərləri arasında imzalanmış dostluq və əməkdaşlığa əsasən Evian şəhərində "Azərbaycan parkı"nda görkəmli şairə Xurşidbanu Natəvanın heykəli ucaldılmışdır.

Xan qızı Natəvanın heykəli Azərbaycanda bir qadının ictimai və sosial həyatda nümunə olaraq müasir elmi biliklərə yiyələndiyinin ən böyük ifadəsi olmaqla bir zamanlar Avropa ölkələrində az rast gəldiyimiz qadın azadlığının Azərbaycanda varlığının simvolu kimi qiymətləndirilir.

Bəs niyə Fransa bunu qəbul etmək istəmir?

Son zamanlar qatı ermənipərəst mövqedən çıxış edən Fransanın Azərbaycanın 2-ci Qarabağ müharibəsində bütün dünyaya nümayiş etdirdiyi qalibiyyətini həzm edə bilməməsi günün reallığıdır. Elə buna görə də Qarabağ xanı Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Natəvanın heykəli və "Azərbaycan parkı"na qarşı Fransanın atdığı bu addım qəbuledilməzdir. Bu vandal hərəkəti törədənlər bilməlidirlər ki, elə Xan qızının mədəniyyət beşiyimiz olan Şuşanın mərkəzində ucaldılmış heykəli bir zamanlar erməni işğalı altında qalan həmin torpaqların kimə məxsus olduğunun sübutudur. Fransa nə qədər Azərbaycan əleyhinə fikirlər səsləndirsə də, xalqımız həmişə öz humanizmi ilə milli-mədəni dəyərlərə böyük önəm verir və həm də belə dəyərlərin təbliğatçısıdır. Biz bir xalq kimi hər zaman tolerant düşüncədə olub Viktor Hüqonun kitablarını yandırmırıq, oxuyuruq. Bu da təsdiq edir ki, Azərbaycanda hər zaman nümunə gücündə inkişaf etmiş mədəniyyət olub. Xalqımız indi də bunun daşıyıcısıdır. Mədəniyyət xalqları birləşdirən ən etibarlı körpüdür. Azərbaycan bu vədinə hər zaman sadiq olub və bundan sonra da belə olacağı şəksizdir.

Bu yaxınlarda cənab Prezident İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibədə dediyi kimi: ***"...Onlar artıq öz-özlüyündə vandalizm aktı olan Natəvanın heykəlinin təhqir edilməsi, onun sellofana bükülməsi, bu şəhər ilə İsmayıllı arasında qardaşlıq sazişinin ləğv edilməsi kimi lüzumsuz hərəkətlərə əl atmağa başladılar. Təbii ki, biz də adekvat cavab veririk və indi də buna davam edirik. Amma bu, deyə bilərəm ki, artıq kin, gücsüzlük və isterikanın özünü heykəldə göstərdiyi mənəvi deqradasiyanın dibidir. Yəni burada onlar praktiki olaraq ermənilərdən az fərqlənirlər. Çünki ermənilər Natəvanın Ağdamdakı məzarını qazıblar, heykəlini məhv ediblər. Biz onu bərpa etdik, daha doğrusu, yenidən dəqiq surətini ucaltdıq. Fransa isə Natəvanın həmin ölkədə heykəlini təhqir edir. Göründüyü kimi, burada bir oxşarlıq var. Ona görə də indi vəziyyət belədir, biz, əlbəttə ki, bütün bunlara cavab verəcəyik. Biz təkcə müdafiə olunan və özünə bəraət qazandıran ölkə deyilik. Biz adekvat cavablar veririk və verəcəyik. Belə ki, fransız imperializminin müstəmləkə ölkələrində törətdiyi vəhşiliklər haqqında dünyanın xatırlayacağı faktlar həddindən artıq çoxdur".***

Görünənsə odur ki, Fransa ermənipərəst maraqlarını qoruyur, elə buna görə də Azərbaycana qarşı müxtəlif istiqamətlərdə təzyiqlər göstərir. Biz isə onlardan fərqli olaraq aradakı əlaqələrin inkişafı üçün real addımlar atmışıq və atırıq. Lakin onlar bilməlidirlər ki, "Heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz".

# Naxçıvanda Data Mərkəz inşa ediləcək



Naxçıvan Muxtar Respublikasında Data Mərkəzin inşa edilməsi və müvafiq texniki infrastrukturun yaradılması planlaşdırılır. Bunun üçün ötən il noyabrın 18-də "Dövlət satınalmalarının vahid internet portalında" satınalma müsabiqəsi elan edilib. Dekabrın 18-də müsabiqə uğurla yekunlaşıb.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətindən aldığımız məlumata görə, müsabiqədə iştirak edən şirkətlər arasında aparılmış qiymətləndirmə nəticəsində qalib elan edilmiş "KOÇ SİSTEM AZƏRBAYCAN" MMC ilə satınalma müqaviləsi imzalanması üzrə müvafiq işlər aparılır. Data Mərkəzin inşası və müvafiq texniki infrastrukturun yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə ayrılmış 2 000.000,0 manat vəsaitin tam hissəsi Azərbaycan Respublikasının Maliyyə Nazirliyindən sifariş edilib.

# Nəqliyyat-texnika parkı yenilənəcək

Naxçıvan Muxtar Respublikasında meliorasiya və irriqasiya sahəsində nəqliyyat-texnika parkının yenilənməsi istiqamətində işlər həyata keçiriləcək. Bu məqsədlə ötən il noyabrın 4-də "Dövlət satınalmalarının vahid internet portalında" satınalma müsabiqəsi elan edilib. Dekabrın 7-də müsabiqə uğurla yekunlaşıb.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətindən aldığımız məlumata görə, müsabiqədə iştirak edən şirkətlər arasında aparılmış qiymətləndirmə nəticəsində qalib elan edilmiş "Təmir-Tikinti Layihə" MMC ilə satınalma müqaviləsi imzalanması üzrə müvafiq işlər aparılır. Sözügedən parkın yenilənməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə ayrılmış 3 000.000,0 manat vəsaitin 2.969.470,0 manatı Azərbaycan Respublikasının Maliyyə Nazirliyindən sifariş edilib. Vəsait üzrə 30.530 manat məbləğində qənaət əldə olunub.



**Xəbərlər şöbəsi**




# Prezident Seçkiləri Günüdür

## Naxçıvanda seçkilərə hazırlıq işləri davam etdirilir



Müstəqillik tariximizdə ilk dəfə olaraq prezident seçkiləri ölkəmizin bütün ərazilərini əhatə edəcək.

Naxçıvanda fevralın 7-nə təyin edilmiş növbədənkənar prezident seçkilərinə hazırlıq işləri davam etdirilir.

Seçki məntəqələrində seçicilərin rahat, sərbəst, şəffaf şəraitdə səs vermələri, müşahidələrin aparılması üçün hər cür şərait yaradılıb. Məntəqələrdə müşahidə kameraları yerləşdirilib ki, bu kameralar vasitəsilə seçki prosesini canlı izləmək mümkündür.

4 saylı Naxçıvan Şəhər Seçki Dairəsinin sədri Çingiz Həsənli jurnalistlərə müsahibəsində qeyd edib ki, hazırda Naxçıvan şəhərində 42 məntəqə fəaliyyət göstərir, və bu məntəqələrdə daimi seçici siyahısının sayı 45 min 945 nəfərdir. Şəffaflığın təmin edilməsi məqsədilə seçki dairəsinin ərazisində əlavə olaraq 4 veb-kamera quraşdırılıb.

3 saylı Babək-Şahbuz-Kəngərli Seçki Dairəsində də hazırlıq işləri yekunlaşmaq üzrədir.

Babək-Şahbuz-Kəngərli Seçki Dairəsinin sədri Tamaddin Hüseynov bildirib ki, 60 seçki məntəqəsindən 29 seçki məntəqəsi Babək rayonunun ərazisində, 21 seçki məntəqəsi Şahbuz rayonunun ərazisində, 6 seçki məntəqəsi isə Kəngərli rayonunun ərazisində yerləşir. Ümumilikdə, seçki məntəqələri üzrə 360 seçki məntəqəsi üzvü var ki, bunlar müxtəlif partiyaları təmsil edirlər. Seçici siyahılarının dəqiqləşdirilməsi ilə əlaqədar olaraq bu gün seçicilərin siyahısı dairə üzrə 45 min 940 nəfər qeydə alınıb.

Qeyd edək ki, Seçki Məcəlləsinə əsasən növbədənkənar prezident seçkiləri ilə əlaqədar müvafiq dairə seçki komissiyaları tərəfindən seçicilərə qeydiyyatdan çıxma vəsiqələrinin verilməsi prosesi bu gün başa çatır. Səsvermə vəsiqələri səsvermə gününə 45-25 gün qalanadək Mərkəzi Seçki Komissiyasından dairə seçki komissiyalarına verilir. Yəni bu müddət 2023-cü il dekabrın 24-dən 2024-cü il yanvarın 13-dək olan dövrü əhatə edir. Dairə seçki komissiyalarından məntəqə seçki komissiyalarına səsvermə vəsiqələri isə səsvermə gününə 25-3 gün qalanadək verilir. Bu müddət isə 2024-cü il yanvarın 14-dən fevralın 4-dək olan dövrü əhatə edir.




## Seçkiqabağı təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün müvafiq yerlər artıq ayrılıb



Seçki məntəqələrinin ərazisində seçkiqabağı təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün müvafiq yerlərin müəyyənləşdirilməsi müddəti yanvar ayının 8-də başa çatıb.

Seçki Məcəlləsinin 87.6-cı maddəsinə əsasən dairə seçki komissiyasının (DSK) təklifi ilə yerli icra hakimiyyəti orqanı və bələdiyyə qurumları səsvermə gününə azı 30 gün qalmış seçki məntəqələrinin ərazisində seçkiqabağı təşviqat materiallarının ayrılmış lövhələrdə yerləşdirilməsi üçün müvafiq yerlərin müəyyənləşdirilməsini təmin etməlidirlər.

Muxtar respublikadakı bütün seçki məntəqələrinin ərazisində seçkiqabağı təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün müvafiq yerlər artıq ayrılıb.

Naxçıvan Muxtar Respublikasında 6 dairə seçki komissiyası və 310 məntəqə seçki komissiyası fəaliyyət göstərir.

*1 saylı Şərur-Sədərək Seçki Dairəsi – DSK sədri Niyaz Əsgərov*

*2 saylı Şərur-Kəngərli Seçki Dairəsi – DSK sədri Kənan Qəhrəmanov*

*3 saylı Babək-Şahbuz-Kəngərli Seçki Dairəsi – DSK sədri Tamaddin Hüseynov*

*4 saylı Naxçıvan Şəhər Seçki Dairəsi – DSK sədri Çingiz Həsənli*

*5 saylı Babək-Naxçıvan-Culfa Seçki Dairəsi – DSK sədri Əzim Əzimov*

*6 saylı Ordubad-Culfa Seçki Dairəsi – DSK sədri Həsən Həsənov*

## Vətəndaşlar seçici siyahısından adını necə yoxlayacaq




Adınızın seçici siyahısında olub-olmadığını və ümumiyyətlə, seçki prosesində sizi maraqlandıran suallarla əlaqədar məlumatları Mərkəzi Seçki Komissiyasının internet saytlarından *(www.msk.gov.az, www.cec.gov.az, www.infocenter.gov.az)* və ya aşağıdakı telefon nömrələri ilə əlaqə saxlamaqla öyrənə bilərsiniz:

*-1 saylı Şərur-Sədərək Dairə Seçki Komissiyası – 542-38-77*

*- 2 saylı Şərur-Kəngərli Dairə Seçki Komissiyası – 542-34-22*

*- 3 saylı Babək-Şahbuz-Kəngərli Dairə Seçki Komissiyası – 541-39-88*

*- 4 saylı Naxçıvan Şəhər Dairə Seçki Komissiyası – 545-74-23*

*- 5 saylı Babək-Naxçıvan-Culfa Dairə Seçki Komissiyası – 546-01-14*

*- 6 saylı Ordubad-Culfa Dairə Seçki Komissiyası – 547-16-41*

## Seçki mübahisələrinin məhkəmə qaydasında həlli mövzusunda seminar-müşavirə

Fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Azərbaycan Respublikasının Ali Məhkəməsi və apellyasiya məhkəmələri ilə birgə layihəsi çərçivəsində regionlarda seçki mübahisələrinin məhkəmə qaydasında həlli mövzusunda seminar-müşavirələr start götürüb.

Yanvarın 10-da Naxçıvanda bu mövzuda seminar-müşavirə keçirilib.

Seminar-müşavirədə Mərkəzi Seçki Komissiyasının üzvü Ramiz İbrahimov, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Əli Allahverdiyev, Mərkəzi Seçki Komissiyasının Katibliyinin Hüquq şöbəsinin müdiri Rafiq Abbasov, Ali Məhkəmənin hakimi Səxavət Bəylərli Azərbaycan Respublikası Prezidenti seçkilərində vətəndaşların seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin seçki komissiyalarına verilməsi və onların araşdırılması qaydaları, seçki hüquqlarının müdafiəsi ilə bağlı qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi və məhkəmədə seçki hüquqlarının müdafiəsi ilə bağlı işlər üzrə icraat barədə təqdimatlarla çıxış ediblər.

Vurğulanıb ki, bu layihənin reallaşdırılmasında əsas məqsəd fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin yüksək səviyyədə təşkil olunması, azad, ədalətli və şəffaf keçirilməsi yönündə görülən işlərlə yanaşı, seçki mübahisələrinin həlli ilə bağlı dairə seçki komissiyalarının bilik, bacarıq və məlumatlılıq səviyyəsinin yüksəldilməsi, bu istiqamətdə atılan addımların səmərəliliyinin artırılması, eləcə də vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunmasıdır.

Sonda seçki mübahisələrinin məhkəmə qaydasında həllinə dair müzakirələr aparılıb və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Yanvar ayının 8-dən başlayan layihə respublikanın dörd şəhərində – Gəncə, Naxçıvan, Şəki və Şirvanda həyata keçirilir. Seminar-müşavirələrin məqsədi seçki mübahisələrinin məhkəmə qaydasında həlli məsələləri üzrə maarifləndirmə işini təmin etməkdir.



**Ceyhun MƏMMƏDOV**

## Vətəndaşların seçki hüququnun əsasları və təminatı

Xalqın iradəsinin bilavasitə və ən yüksək ifadəsi dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarına azad və demokratik seçkilərin keçirilməsi, habelə dövlət həyatının ən mühüm məsələlərinə dair öz rəyini ümumxalq səsverməsi yolu ilə bildirməsidir. Seçkilər ümumi hüquq münasibətləri içərisində xüsusi yer tutaraq demokratiyanın təmin olunmasında və inkişaf etdirilməsində mühüm rol oynayır.

Dövlət orqanlarına və bələdiyyələrə seçmək və seçilmək hüququ hər bir vətəndaşın konstitusion hüququdur. Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsində və Seçki Məcəlləsində nəzərdə tutulan hallar istisna olmaqla Milli Məclisə seçkilərin, prezident seçkilərinin, bələdiyyələrə seçkilərin, referendumun keçirilməsi günü (həmin gün də daxil olmaqla) 18 yaşına çatmış Azərbaycan Respublikasının hər bir vətəndaşının seçmək, referendumda səs vermək, seçkilərin gedişini müşahidə etmək, seçkiqabağı təşviqatda iştirak etmək, Seçki Məcəlləsi ilə nəzərdə tutulmuş seçki hərəkətlərində və referendumun hazırlanması ilə bağlı hərəkətlərin həyata keçirilməsində iştirak etmək hüququ, aktiv seçki hüququ vardır.

Qüvvədə olan seçki qanunvericiliyi respublikamızda demokratik və şəffaf seçkilərin keçirilməsi üçün müvafiq norma və müddəaları nəzərdə tutur. Ölkəmizdə keçirilmiş azad və ədalətli, demokratik meyarlara və dünya standartlarına cavab verən prezident, parlament və bələdiyyə seçkiləri bu fikri əyani olaraq təsdiq edir. Respublikamızda seçkilərin təşkil edilməsi və keçirilməsi seçki komissiyaları tərəfindən həyata keçirilir. Seçki komissiyaları öz fəaliyyətlərində hər hansı dövlət hakimiyyət orqanlarından, bələdiyyə qurumlarından, siyasi partiyalardan, qeyri-hökumət təşkilatlarından və başqa ictimai təşkilatlardan, digər hüquqi və fiziki şəxslərdən asılı deyildir. Seçki komissiyalarının işinə müdaxilə edən və ya təsir göstərən şəxslər isə Azərbaycan Respublikasının Cinayət və İnzibati Xətalar məcəllələrinə əsasən məsuliyyətə cəlb edilirlər.

Seçki qanunvericiliyinə əsasən seçkilərdə iştirak edənlər mətbuat azadlığına hörmət etməli, öz peşə fəaliyyəti ilə məşğul olan media nümayəndələrinin işinə mane olmamalı, namizədlərin, partiyaların seçki kampaniyalarına müdaxilə etməməli və onu pozmamalı, seçkiqabağı təşviqat materiallarının yayılmasına mane olmamalı, seçkiqabağı təşviqat plakatlarını və digər bu cür təşviqat materiallarını məhv etməməli və korlamamalı, seçkilərin azad, sərbəst, dinc və mütəşəkkil keçirilməsi üçün seçki orqanları və onların vəzifəli şəxsləri ilə əməkdaşlıq etməli, seçicilərin öz iradəsini azad və sərbəst bildirməsinə maneçilik törətməməlidir. Həmçinin səlahiyyətli şəxslərə və müşahidəçilərə hörmət bəsləməli və onlarla əməkdaşlıq etməli, səsvermənin gizliliyini saxlamalı və saxlanılmasına kömək göstərməli, seçiciləri qeyri-qanuni hərəkətlər yolu ilə öz tərəfinə çəkməməli, seçki komissiyalarının fəaliyyətlərinə əsassız müdaxilə etməməli, səslərin verilməsi və ya səslərin hesablanması prosesini pozmamalıdır.

Seçki Məcəlləsinin 11-1-ci maddəsinə əsasən hüquqi şəxslərin, dövlət orqanlarının və bələdiyyələrin vəzifəli şəxslərinin, digər fiziki şəxslərin seçkilərin gedişinə qanunsuz müdaxilə etmələri qadağandır. Həmçinin Seçki Məcəlləsinin 115-ci maddəsində vətəndaşların seçki hüquqlarının pozulmasına görə cinayət, inzibati və mülki məsuliyyət nəzərdə tutulmuşdur.

Respublikamızda şəffaf və ədalətli seçkilərin keçirilməsi proseslərində xalqın öz iradəsini azad və sərbəst olaraq ifadə etməsi nəticəsində dövlətin ali hakimiyyət orqanlarının və özünüidarəetmə orqanlarının demokratik yolla formalaşdırılması dövlətin siyasi kursunun və strateji inkişaf xəttinin düzgün və ardıcıl həyata keçirilməsinə imkan yaratmışdır. Fevralın 7-də ilk dəfə bütöv Azərbaycan ərazisində keçirilməsi nəzərdə tutulan növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri də hər bir vətəndaşdan yüksək seçki mədəniyyəti tələb edir.

**Faiq SƏFƏROV**

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri***

## Naxçıvanın ən yaşlı seçicisi

Naxçıvan Muxtar Respublikasında ən yaşlı seçicinin 104 yaşı var. Fevralın 7-də keçiriləcək növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində muxtar respublika üzrə qeydə alınan ən yaşlı seçici 1920-ci il təvəllüdlü Hüseynəliyeva Şərəf Muxtar qızıdır. O, 2 saylı Şərur-Kəngərli Seçki Dairəsinin 41 saylı Qıvraq Seçki Məntəqəsində səs verəcək.



## Seçki könüllüləri ilk dəfə səs verəcək gəncləri maarifləndirir

Naxçıvanda Azərbaycan və Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun dəstəyi, Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı ilə seçki könüllüləri tərəfindən ilk dəfə səs verəcək gənclər maarifləndirilir. Bu proses ölkəmizin hər yerində aparılır, o cümlədən Naxçıvan Muxtar Respublikasının da bütün bölgələrini əhatə edəcək. İndiyədək muxtar respublikanın Naxçıvan şəhəri daxil olmaqla Şərur, Ordubad və Culfa rayonlarında bu cür maarifləndirici görüşlər təşkil olunub.



*"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində bir şəhid anasının övladı haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Kəngərli rayonunun Xok kəndindən olan şəhidimiz Ülvi Cəfərovun anası Cavan Cəfərovanın övladı haqqında xatirəsi yer alıb.*

# 100 ilin qəhrəmanları

## Ülvi Habil oğlu Cəfərov

*(16.01.1998 – 31.10.2020)*

### "Məni şəhid olanda tanıyarsınız", – deyib Qarabağa yollanan Ülvi






Çox vətənpərvər idi. Uşaq vaxtı ona pul verdim ki, mağazadan ürəyi istədiyini alsın. O gedib oyuncaq avtomat aldı. Hərbiyə marağı olduqca çox idi. Əsgər, zabit görən kimi ona hərbçi salamı verirdi. Ancaq döyüşləri əks etdirən filmlərə baxırdı. Vətənə olan sevgi və bu həvəs onu sonda hərbçi etdi.



Ülvi halal uşaq idi. Döyüşə getməmişdən bir neçə gün əvvəl onu işə aparan sürücüyə zəng vurur. Ondan halallıq istəyir ki, birdən ona borclu qalar. Deyir, döyüşə gedirəm, olar ki, qayıtmaram. Sonra alış-veriş etdiyi mağazaya gedib. Onlardan da halallıq istəyib. Hətta bizdən belə halallıq istədi. Məni atasına, atasını da mənə tapşırdı.

İş yoldaşı danışırdı ki, ona gizirlik rütbəsini verəndə də razı olmurdu. Deyirdi ki, müharibəyə gedib-qayıtdıqdan sonra verərlər. Biz də həmin vaxt dedik ki, toyun olacaq, gizirliyini al, sonra get müharibəyə. Toy etməyimizə də razı olmadı.

Hamıya bu sözü demişdi: "Mən şəhid olacağam". Onun istifadə etdiyi sosial şəbəkələrdəki bütün paylaşımları Vətənə aid idi. Bir paylaşımında qeyd edirdi ki, məni şəhid olanda tanıyarsınız.

Hər dəfə işə getməzdən əvvəl məni qucaqlayıb öpürdü. Son gedişində gəldi ki, ana, məni bərk-bərk qucaqlayıb öp. Getdi, Cəbrayıldan mənə zəng etdi. Qarşıdan bacısının ad günü gəlirdi. Telefonda dedi ki, torpaqları alıb bacımın ad gününə hədiyyə edəcəyəm.

İndi o torpaqlarda Ülvimin qanı var. Oralar mənim üçün müqəddəsdir. Nəhayət, mən də o torpaqlara ayaq basdım. Ülvinin şəhid olduğu yerə getdim. Qış günündə hər yer xozanlıq olsa da, Ülvinin şəhid olduğu yerdə qızılgül bitmişdi. Ülvi kimi oğullarımızın qanı ilə o torpaqlar cana gəlib. İnanın, hiss elədim ki, balam oradadır. Mənimlə birlikdədir.

Ülvinin ruhu o torpaqlarda gəzir. Orada Ülvini o qədər yaxından hiss edirdim ki, sanki mənimlə birlikdə idi.

Ülvi bizə məsləhət etmədən Vətən yolunu seçdi. Döyüşə getdiyini mənə heç vaxt demədi. Bu, bir tale idi. Ülvi isə uşaqlıqdan o taleni sanki özü müəyyənləşdirmişdi. "Əlifba bayramı"nda ona tapşırılan şeiri yox, qeyri-ixtiyari olaraq heç kimin gözləmədiyi "Marş, irəli, Azərbaycan əsgəri" mahnısını oxuması heç yadımdan çıxmır. O qədər ürəkdən ifa etdi ki, hamı onu ayaq üstə alqışladı. Çox qəribədir ki, döyüşə gedəndə o mahnını oxudu və qəhrəman oldu!

*Əfsanəyə dönən ömürlər*

# Qisası qiyamətə saxlamayan oğul

***Vətən müharibəsi şəhidi Həmid Qasımovun əziz xatirəsinə***



"Naxçıvan Qaziləri" İctimai Birliyinin ofisində şəhid şəkilləri ilə bəzənmiş guşəyə baxıram. Şəhid fotolarından baxan gözlərdəki Vətən sevgisini gördükcə işğaldan azad olunmuş kəndlərimiz, şəhərlərimiz gəlir gözlərimin önünə. Gənc ömürlərini, xəyallarını qurban verdilər onlar bir qarış torpaq üçün və özləri əbədiyyən sülh göyərçini oldular, – deyirəm. Bu anda mənimlə yanaşı dayanan şəhid anası ilə göz-gözə gəlirəm. Tovuz xanım igid Həmid Qasımovun anasıdır. Oğlunun fotosunu götürüb əzizləyir, silah dostlarının anaları ilə dərdləşir. Həmid haqqında danışır:

– Vətən müharibəsinin saysız qəhrəmanlarından olan Həmid də bir çoxları kimi hərb sənətini seçmişdi. Yolu çətin olsa da, qorxmadı, çəkinmədi. Zabit olan kimi xidmətinə cəbhə bölgəsində başladı. O, Mübariz İbrahimov postunda dayandı, qisas almaq üçün hazırladı taqımını. Nişanlı idi, amma toy etməyə tələsmirdi. "Vətən dardadır", – deyirdi həmişə. General Polad Həşimovun komandanlığında təlimlər keçir, onu özünə örnək bilirdi. General şəhidlik zirvəsinə ucalanda çox sarsılmışdı. Qisasını alacağına and içmişdi. Vətən müharibəsində igidlik göstərdi, yaralandı. Həmin döyüşlərin birində şəhadətə yüksəldi.

Tovuz ana deyir ki, Vətən müharibəsi başlayan gün Həmid qardaşına zəng vurub ondan gedib orduya könüllü yazılmasını istəyib. Toy etməyə hazırlaşırdım həmin payız, amma oğlum bəy kostyumunu bayrağa dəyişdi. Oktyabrın 6-da evimizə qəhrəman kimi qayıtdı. Bürünüb gəldiyi üçrəngli bayrağı onun bəy paltarı bilib bağrıma basdım. Oğlumun məzarını xonçalarla bəzədim. Amma sınmadım. O, uşaqlıqdan döyüşkən, vətənsevər bir uşaq idi. Özü də bilirdi hərbçi olmaq nə qədər çətindir. Şəhadətindən artıq üç il keçir. Hər gün ondan yadigar qalan əşyaları əzizləyirəm, hərbi formasının çiynindəki baş leytenant rütbəsinə, sinəsini bəzəyən "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "İgidliyə görə", "Vətən uğrunda" medallarına, "Vətənə xidmətə görə" ordeninə baxıram, gözlərim yaşarıb ürəyim yananda oğlum şəhid olandan sonra dünyaya gələn Həmidin adını daşıyan körpələr düşür yadıma. Deyirəm ki, bundan sonrakı təsəllim sənin adını daşıyan balaların böyüyüb, azad etdiyin Vətən torpağında sülh və əmin-amanlıq içində yaşamalarıdır.

Ananın ürəyinin böyüklüyünə heyran qalıram. Zəfər qazanan xalqın əsl qəhrəmanları sizsiniz, Azərbaycan qadınları, siz var olduqca bu Vətən də yaşayacaq, – deyə düşünürəm.

# Bir ocağın iki qəhrəman igidi

Vətən müharibəsində bu xalq qəhrəmanlığını, mətanətini itirməyən anaların dik duruşu, nişanlısının, ömür-gün yoldaşının tabutunu çiynində daşıyıb düşmənə dərs verən gəlinlərin cəsarəti ilə dünyaya sübut etdi. Zəfər savaşında həm qardaşını, həm də həyat yoldaşını itirdi Şərur rayonunun Ələkli kənd sakini Nargül İbrahimova. Məğrur duruşu ilə dillərə dastan oldu, düşmənə meydan oxudu. Belə qadınları var Azərbaycan xalqının, – dedi. Şəhidlik zirvəsinə ucalan qardaşının məzarına ilk torpağı özü atıb, şəhid olan ömür-gün yoldaşını çiyinlərində daşıdı. Adilindən əmanət qalan iki körpəsini bağrına basıb onlarla ovunur indi...

Onunla söhbətimizdə deyir ki, Vətən onu qoruyan igidləri ilə yaşayır, var olur həmişə. Bu gün qardaşımla fəxr edirəm. O, cənnətin açarlarını valideynlərinə verib getdi. Qardaşımı Şərur Şəhidlər xiyabanında son mənzilə yola salanda bütün cəsarətimi toplayıb onun məzarına torpağı mən özüm atdım. O zaman heç ağlıma da gəlməzdi ki, bir neçə gün sonra övladlarımın atasını da Vətənə qurban verəcəyik. Ailəmizin iki üzvü, iki əzizi, iki oğlu, iki igidi Vətənin bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucaldı.



Həyat yoldaşım Adil də, qardaşım Elton da ixtisaslı hərbçi idilər. Həmişə bir idi sözləri, söhbətləri, amalları. Vətənimiz bütövləşsin, düşmən tapdağında inləməsin yurdumuz. Adil altı ilə yaxın bir müddətdir, xidməti vəzifəsini yerinə yetirirdi. Onun son vəzifəsi qrup komandiri və baş kəşfiyyatçı idi. Döyüşlərdə şücaətlə iştirak etdi və noyabrın 7-də qəhrəmanlıqla şəhid oldu. Bakıda II Fəxri xiyabanda dəfn edildi. Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən həyat yoldaşıma "Vətən Müharibəsi Qəhrəmanı" adı, "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Vətən uğrunda" medalları verildi. Ondan mənə yadigar qalan iki körpəm, bir də tarixin səhifələrinə yazdığı qəhrəmanlıq dastanıdır. Mən bundan sonrakı həyatımı Adilin əziz xatirəsini yaşatmağa və övladlarımı böyütməyə həsr edəcəyəm.

Nargül xanım onu da deyir ki, o, iki qardaşın bir bacısıdır. Qardaşı Elton Qənbərli xüsusi təyinatlı qüvvələrin tərkibində kurs keçib, təlimləri həmişə yüksək nəticə ilə başa vururdu. Qardaşım qrup komandirinin müavini və kəşfiyyatçı kimi torpaqlarımızın düşməndən azad edilməsində xüsusi xidmətlər göstərib. Şiddətli döyüşlər zamanı yaralansa da, meydanı tərk etməyib, sonadək döyüşərək şəhid olub. Ölkə başçısı tərəfindən "Azərbaycan Bayrağı" ordeni, "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilib.

Bu gün mən həm şəhid bacısı, həm də şəhid yoldaşıyam. Ürəyim nə qədər sızlasa da, başımı dik tuturam. Çünki o iki can hədər yerə qurban getməyib. Onlar Vətənin oğul dediyi qəhrəmanlardan oldular, illərdir, ürəyimizdə yanan qoru söndürdülər, sönən çıraqlarımızı yandırdılar. Adil, Elton kimi igidlərin sayəsində bayrağımız daha da qürurla dalğalanır.

**Ramiyyə ƏKBƏROVA**



# Yaşıllıq göz nuru, yaşamaq mənbəyidir



✍ Ramiyyə ƏKBƏROVA

***Görkəmli təbiətşünas alim, akademik Həsən Əliyevin bu müdrik kəlamı daim yaddaşlardadır: "Bəlkə də, toya, yasa və digər mərasimlərə yubanmaq olar. Təbiətə münasibətdə yubanmaq isə yaşamağa yubanmaqdır". Ulu Öndərimiz də yaşıllıqların salınmasına, ağacların qorunmasına çox diqqət yetirirdi. Dahi rəhbər özü ağac əkilməsində iştirak edib, nümunə göstərib. Qədim çağlardan yurdumuz bağçılıq-meyvəçilik diyarı kimi tanınıb. Xalqımız yüzillik ağacı da, körpə fidanı da bir övlad kimi qoruyub, qayğısına qalıb, qocaman ağacların yerini versin deyə yenilərini əkib, onların böyüyüb ərsəyə çatmasına qayğı ilə yanaşıb. Axı ağac da insan kimi qulluq istəyir. Elə buna görə də xalqımız ağacı yalnız yaşıllıq rəmzi deyil, həm də xalqın varlığının vacib şərti kimi qəbul edib. Xalq inamına görə, həyatdə, yaşayış evinin ətrafında ağac əkilərsə, ailəyə xeyir-bərəkət, yaxşı gün-güzəran qismət olar, çünki ağac var ki, çiçəyi, yarpağı, meyvəsi, qabığı ilə min dərdə dərmandır. Ağac var ki, meyvəsi ilə süfrəmizə yaraşıq verir. Ağac var ki, görkəmi ilə göz oxşayır, bağları, parkları, həyətləri bəzəyir.***

Təsadüfi deyil ki, "Barlı ağacın başına dolanarlar" fikri ilə ömür sürən babalarımız təbiətə, yaşıllığa, ağaca həyat mənbəyi kimi baxıb, ağac əkməyi, ona qulluq etməyi müqəddəs sayıblar. Ulularımız deyiblər: "Ağacı arx qırağında ək ki, yıxılanda el-obaya körpü olsun", "Ağaclı kəndi sel basmaz, "Ağacı çox olan elin məzarı az olar".

Meyvəli, meyvəsiz ağacların və meşələrin insanlara olan faydaları sayıla bilməyəcək qədər çoxdur. İnsanlıq naminə ağaclara qulluq etmək dinimizdə də savab iş sayılır. Bu barədə hədisi-şəriflərdən birində deyilir ki, bir kimsə bir ağac əkərsə, ağac meyvə verənə qədər onu qoruyub baxarsa, bu ağacdan tökülən hər meyvə Allah qatında o kimsənin sədəqəsi olar. Ona görə də bağ salmaq, ağac əkmək, ümumiyyətlə, ətrafı yaşıllığa qərq etmək ata-babalarımızın adəti olub. Ağac bolluq, şirinlik, mehribanlıq nişanəsi hesab edilir. Ümumilikdə isə ağaclar insanın qoruyucusu, onun sağlamlığının keşikçisidir, boya-başa çatdığı məkanın gözəlliyidir. Bütün bunlarla yanaşı, gələcək nəsil qarşısında daşıdığımız məsuliyyət hissi təbiətə, ətraf mühitə vurulan zərərin azaldılmasını bizim hər birimizə aşılayır. Tədqiqatlara görə, ağaclar çox olan yerlərdə xəstəliktörədən zərərli mikroorqanizmlər 8, zərərli qazlar isə 5 dəfə az olur. Yaşıllıq sağlamlıq, gümrahlıq rəmzi olmaqla bərabər, insan yaşayışının başlıca rəhnidir. İnsan övladı da onun üçün lazım olan təmiz havanı, oksigeni məhz bu mənbədən alır. Bu mənada, sağlamlığımız bu amildən asılıdır. Axı bir ağacın ətrafa verdiyi oksigenlə eyni vaxtda neçə-neçə insan nəfəs alır. Deyilənə görə, bir çinar ağacının verdiyi oksigen 58 adama bəs edir. Bir hektar meşə, yaşıllıq zolağı isə il ərzində 50-70 ton tozu, zəhəri öz "süzgəcindən" keçirir. Gündəlik həyatımızda əhvali-ruhiyyəmizin yüksək olması da xeyli dərəcədə bu amildən asılıdır. Axı təbiətin bu canlı varlıqlarından zövq almağı bacarmaqla yanaşı, bir qədər yorğun və əsəbi olduqda yaşıllıqlar qoynunda gəzməyi, dincəlməyi ən yaxşı istirahət hesab etmişik.

Azərbaycan SSRİ-nin tərkibinə daxil edildikdən sonra ölkəmizin sərvətləri amansızcasına talansa da, götürülən mənfəətdən ekologiyanın qorunmasına sərf olunmur, ya da xəsisliklə cüzi vəsait ayrılırdı. Müxtəlif yerlərdə ağaclar məhv edilir, yerində obyektlər tikilirdi. Bütün bunlar ekoloji mühiti korlamaqla yanaşı, cəmiyyətimizə sosial-mənəvi zərbələr də vururdu. Yalnız böyük dövlət qurucusu Ulu Öndər Heydər Əliyev 1969-cu ildə Azərbaycanda hakimiyyətə gələndən sonra bu məsələləri önə çəkdi, ətraf mühitin mühafizəsinə xüsusi diqqət yetirdi. O illər ölkəmizin ayrı-ayrı bölgələrində park və xiyabanların salınması, iməciliklər yolu ilə yaşıllıq zolaqlarının artırılması bu siyasətin uğurlu nəticəsi idi. Təəssüflər olsun ki, Azərbaycan öz müstəqilliyini yenidən bərpa etdikdən sonra bir vaxtlar Ümummilli Liderin təşəbbüsü və iştirakı ilə salınmış yaşıllıqlar acınacaqlı vəziyyətə düşdü. Muxtar respublikaya mavi yanacaq verilməsi dayandırıldıqdan sonra rayonlarda və kəndlərdə ağaclar kəsilərək məhv edildi. Baxımsız qalan park və xiyabanlar dağıdıldı, yaşıllıq zolaqları əhali tərəfindən soyuqdan donmamaq üçün qırılıb yanacaq kimi istifadə edildi. Ulu Öndər xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə olunması və onların bərpası istiqamətində yenidən ciddi və ardıcıl tədbirlər həyata keçirilməyə başlandı.

Əsası Ümummilli Lider tərəfindən qoyulan ekoloji siyasət bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, dövlət başçısının müvafiq sərəncamları ilə təsdiq olunan milli proqramların həyata keçirilməsi sahəsində əməli tədbirlər görülür. Bütün bu proqramların həyata keçirilməsi muxtar respublikamızın da əlvan təbiətinin mühafizəsinə əsaslı təminat verir. Dövlət proqramlarına uyğun olaraq müxtəlif yerlərdə minlərlə meyvə, meşə və bəzək ağacları, qızılgül kolları və mövsümi çiçək şitilləri, arxların kənarlarına xeyli söyüd və qələmə çubuqları basdırılıb.

Mövcud ekoloji vəziyyətin daha da yaxşılaşdırılması, təbii sərvətlərin qorunması, onlardan səmərəli istifadə edilməsi məqsədilə Naxçıvanda 9 min 118 hektarlıq "Arazboyu" Dövlət Təbiət Yasaqlığı, 2009-cu ildə isə 68 min 911 hektar sahədə "Arpaçay" Dövlət Təbiət Yasaqlığının yaradılması da təbiətin qorunması istiqamətində uğurla atılan əsaslı addımlardan biridir.

Müdriklərimiz deyiblər: "Ağac əkmək, bağ salmaq hünər deyil, onu qoruyub saxlamağı bacarasan gərək", "Bağa baxarsan, bağ olar, baxmazsan, dağ olar". Onların bu kəlamlarına əməl edən muxtar respublika sakinləri əsas diqqəti insan əlləri ilə ərsəyə gətirilmiş gözəllikləri qorumağa, onlara aqrotexniki qulluq göstərməyə yönəldiblər. Belə ki, müxtəlif idarə, müəssisə və təşkilatların kollektivləri bağlara, meşə zolaqlarına çıxır, ağaclara və tinglərə aqrotexniki qulluq göstərirlər. Bunun nəticəsidir ki, artıq Naxçıvan yaşıllıqlar diyarına çevrilib. Bir vaxtlar yol kənarlarındakı ağacları barmaqla saymaq mümkün idisə, bu gün tamam başqa mənzərənin şahidi oluruq. Naxçıvan şəhərindən rayonlara gedən yolların kənarlarında əkilmiş meyvə və meşə ağacları bu yollardan keçənlərin zövqünü oxşamaqla bərabər ekoloji təmizliyi də təmin edir. Yolboyu baş-başa verən müxtəlif ağaclar zövq oxşayır, meyvə bağları barbəhər verir.

O da qeyd olunmalıdır ki, ətraf mühitin sağlamlaşdırılmasına dövlət nəzarəti nə qədər güclü olsa da, təbiətin gözəlliklərinin qorunmasında hər kəsin iştirakı vacibdir. Ona görə ki, bəzən ekoloji təhlükələrin çoxu şəxsi hasarlar arxasında gizlədilir. Çirkab sularının nəzərdə tutulmayan yerlərə axıdılması və ya tullantıların küçə və dalanlarda qalaqlanması ekoloji tarazlığın pozulması deməkdir. Əlbəttə, yaşayış yerlərimizin abadlığına, sağlam atmosferinə, bir sözlə, təbiətin mühafizəsinə cavabdehlik inzibati təsirlərlə yanaşı, vətəndaş həmrəyliyi və cavabdehliyi ilə də tənzimlənməlidir. Ümumiyyətlə, təbiətin mühafizəsinə ekoloji nəzarəti gücləndirmək bənzərsiz gözəllikləri – təbiətin saysız-hesabsız nadir incilərini qorumaq deməkdir. Ona görə də insanların ekoloji təfəkkürünün formalaşması, ekoloji mədəniyyətimizin inkişaf etdirilməsində mühüm əhəmiyyət daşıyan ekoloji maarifləndirmə işləri bu gün də, sabah da diqqət mərkəzində saxlanılmalıdır. Bu, sağlam gələcəyimizin təmin edilməsi üçün vacibdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 dekabr 2023-cü ildə imzaladığı Sərəncamla 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edildi. Sərəncamda deyilir: *"Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur".*

İnanırıq ki, Vətənimiz "Yaşıl dünya naminə həmrəylik ili"ndə daha da gözəlləşib yaşıllıqlar cənnətinə çevriləcək.




## Regional forum

Yanvarın 8-də Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu Naxçıvan şəhərində regional forum keçirib. Regional forumda Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə ölkədə baş verən mühüm dəyişikliklər, inkişaf prosesi əsas müzakirə mövzusu olub. Milli QHT Forumunun prezidenti Rauf Zeyni forumda çıxış edərək bildirib ki, Azərbaycan son 20 ildə Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçib. Ötən dövrdə vətəndaş cəmiyyəti də möhkəmlənib, prosesə töhfə verib.

"QHT sektorunun daha da səmərəli fəaliyyəti üçün aparılan köklü islahatlar əhəmiyyətli, pozitiv dəyişikliklər yaradır", – deyən "Prioritet" Sosial-İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri Zaur İbrahimli qeyd edib ki, son 20 ildə QHT-lərin inkişafında böyük uğurlar əldə edilib.

"Estafet" Gənclərin İctimai Birliyinin sədri Arzu Qasımov çıxışında vurğulayıb ki, Prezident cənab İlham Əliyevin yorulmaz fəaliyyəti Azərbaycan tarixində qızıl dövr açıb. Vətəndaş cəmiyyəti də ölkədə gedən proseslərdə fəal iştirak etməyə çalışır.

Daha sonra forumda mövzu ətrafında müzakirələr olub, QHT sədrləri forumun əhəmiyyəti, həmçinin son 20 ildə görülən işlər barədə danışıblar.

Sonda qeyri-hökumət təşkilatları rəhbərlərinin, iştirakçıların sualları cavablandırılıb.

Qeyd edək ki, Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun regional forumları başa çatıb. Yanvarın 10-da Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatlarının Bakıda Ümumrespublika Forumu keçirilib.

✍ Ceyhun MƏMMƏDOV



# Texnologiya lideri IBM ilə Naxçıvan Dövlət Universiteti arasında strateji əməkdaşlıq: inkişafın yeni üfüqləri

Dünya hərtərəfli modernləşir, həm mental aspektlər, həm də texnologiya sürətlə inkişaf edir. Bu inkişaf, təbii ki, təhsil sistemindən də yan keçmir və bu sahədə də yeni trendlər özünü büruzə verir. Belə ki, "Həyat boyu təhsil" anlayışı daha geniş şəkildə yayılır. Texnoloji inkişaf insana olan tələbi azaltdıqca insan kapitalı fərdləri arasında rəqabət mühiti güclənir. Təhsillə bağlı yeni yanaşmalar təhsil sisteminin daha mobil, daha əlçatan olmasını tələb edərək yeni texnoloji yeniliklərin bu sahədə tətbiqini zəruri edir. Texnoloji inkişafın təhsil sisteminə inteqrasiyası isə "təhsil texnologiyası" termininin formalaşmasına səbəb oldu. Son dövrlərdə standart təhsil sistemində tələbənin bilikləri onun məlumatlılıq səviyyəsi ilə deyil daha çox meta bacarıqları və səriştəsi ilə qiymətləndirilir və bu səbəbdən praktiki biliklərin gücləndirilməsinə yönəlik təhsil texnologiyalarının, onlayn simulyatorların yaradılması zərurətini meydana çıxardı.

Günümüzün tələblərinin, eyni zamanda yeni dünya çağırışlarının içərisində təhsilalma istiqamətindəki göstəricilərin artan dinamikasının təşəkkülü özünün aktuallığı ilə seçilir ki, bu sahədə də Naxçıvan Dövlət Universitetinin yeri və rolu artmaqdadır. Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Proqramlaşdırma Mühəndisliyi İnstitutunun (NPMİ) yaradılması Azərbaycan hökumətinin qarşıya qoyduğu təhsil və texnoloji hədəflərə uyğunlaşma istiqamətində mühüm addımdır. Bu təşəbbüs ölkənin təhsil mühitindəki kritik boşluqları aradan qaldırmaq və texnologiya sektorunun inkişafına töhfə vermək potensialına görə böyük əhəmiyyət kəsb edir. Bu kontekstdə International Business Machines (IBM) ilə Naxçıvan Dövlət Universiteti arasındakı strateji əməkdaşlıq təhsili texnologiyanın gətirdiyi yeniliklərlə birləşdirərək regional inkişafın və tələbələrin gələcəyinin formalaşdırılması məqsədinə yönəlib.

1911-ci ildə Thomas Watson tərəfindən qurulandan bəri IBM texnologiya dünyasının aparıcı adlarından biri olmuşdur. IBM-in dünya üzrə texnoloji həlləri təkcə şirkətlərin ehtiyaclarına cavab vermir, həm də sənayenin təkamülünə təkan verir. IBM-in kompüter texnologiyasının inkişafında qabaqcıl rolu onun qlobal səviyyədə texnologiya lideri kimi tanınmasına imkan verir. Şirkət tərəfindən təqdim olunan həllər maliyyə, səhiyyə, təhsil, istehsal və bir çox digər sektorlarda biznes proseslərini optimallaşdırmaq, səmərəliliyi artırmaq və rəqabət üstünlüyü əldə etmək üçün strateji vasitələr təqdim edir.

IBM-in qlobal texnologiya liderliyi və Naxçıvan Dövlət Universitetinin təhsildə mükəmməllik vizyonu Proqramlaşdırma Mühəndisliyi İnstitutu vasitəsilə bir araya gələrək regionda mühüm bir yeniliyə imza atmışdır. Bu strateji tərəfdaşlıq universitetin hüdudlarını aşaraq bölgənin rəqəmsal transformasiyasına rəhbərlik edən bir model yaratmışdır.

Proqramlaşdırma Mühəndisliyi İnstitutunun akademik və əməkdaşlıq maraqları ilkin olaraq Süni intellekt, Bulud texnologiyaları, Kibertəhlükəsizlik, Data elmi, Dizayn düşüncəsi sahələrinə yönələcək.

Belə ki, Naxçıvan Dövlət Universiteti ilə IBM arasında imzalanan əməkdaşlıq müqaviləsinə əsasən NDU "Skills Build for Academia" proqramına qoşulmuşdur. Bu proqrama tədris materialları və TTT (train the trainer) kursları daxildir. Bu kurs çərçivəsində 5 modul üzrə təlimlərin aparılması və ilkin olaraq 20 professor-müəllim heyətinin təlimlərdə iştirakı planlaşdırılır. Ötən ilin oktyabr, dekabr aylarında keçirilən "Bulud texnologiyaları", "Süni intellekt" və "Dizayn düşüncəsi" təlimlərinə Naxçıvan Dövlət Universitetinin 9 əməkdaşı qoşularaq IBM-dən sertifikat əldə etmişdir. 2024-cü ilin yanvar və aprel aylarında digər 2 modul – "Data elmi" və "Kibertəhlükəsizlik" üzrə təlimlər baş tutacaq. Bu təlimlərin keçirilməsində əsas məqsəd universitetin müəllim-professor heyətini yeni yaradılacaq Proqramlaşdırma Mühəndisliyi İnstitutuna təlimçi kimi hazırlamaqdır.

Naxçıvan Dövlət Universiteti regional təhsil müəssisəsi kimi tələbələrə təkcə bilik ötürmək üçün deyil, həm də onları gələcəyin texnoloji çağırışlarına hazırlamaq məqsədilə fəaliyyət göstərir. Müasir təhsil yanaşmasını mənimsəyən universitet tələbələrə rəqabətli rəqəmsal dünyada uğur qazanmaq üçün lazımi imkanlar təqdim edir. IBM ilə qurulan əməkdaşlıq bu vizyonun mühüm əksidir. Bu strateji tərəfdaşlıq Naxçıvan Dövlət Universitetinin təhsil proqramlarına əlavə dəyər qatır, tələbələrə daha geniş perspektiv və sənaye standartlarına uyğun biliklər verir.

IBM ilə əməkdaşlıq Naxçıvan Dövlət Universitetinin adını beynəlxalq səviyyədə daha geniş auditoriyaya tanıtmaq potensialına malikdir. İnformasiya və texnologiya nəhəngi ilə yaradılan bu strateji əməkdaşlıq universitetin nüfuzunu artırmağa və indiyədək çatmadığı coğrafiyalarda tanınmasını gücləndirməyə imkan yaradacaqdır. Bu həm universitetin akademik keyfiyyətini daha da gücləndirəcək, həm də tələbələri və alimləri bu təhsil müəssisəsinin imkanlarından istifadəyə təşviq edəcəkdir. Bununla da Naxçıvan Dövlət Universiteti qlobal miqyasda rəqabətədavamlı akademik mühitə çıxış imkanı qazanır.

Naxçıvan Dövlət Universitetinin IBM ilə əməkdaşlığı təkcə təhsil sahəsinə deyil, həm də regionun iqtisadi və texnoloji inkişafına mühüm töhfələr vermək məqsədi daşıyır. Bu əməkdaşlıq davamlı artım və sosial inkişaf üçün əhəmiyyətli addım sayıla bilər.

Belə ki, IBM ilə əməkdaşlıq regionda məşğulluq yaratmaq potensialına malikdir. Proqramlaşdırma Mühəndisliyi İnstitutunun açılması yerli tələbələrə və mütəxəssislərə proqram təminatının hazırlanması və texnologiyası üzrə təlim keçmək şansı yaratmaqla ixtisaslı işçi qüvvəsinin artırılmasına töhfə verəcəkdir. Bu həm də regionda əmək bazarının şaxələndirilməsinə və möhkəmlənməsinə, əməkdaşlıq çərçivəsində göstərilən texniki dəstək və resurslar Naxçıvanın texnoloji infrastrukturunun gücləndirilməsinə, regionda daha güclü rəqəmsal ekosistem yaratmaqla yerli biznes və qurumların rəqabət üstünlüyünün artırılmasına geniş imkanlar açacaq.

IBM və Naxçıvan Dövlət Universiteti arasındakı bu strateji əməkdaşlıq təkcə universitet və şirkət arasında deyil, həm də regionun gələcəyini formalaşdırmaq üçün bir araya gələn ekosistem kimi qiymətləndirilməlidir. Proqramlaşdırma Mühəndisliyi İnstitutunun açılması tələbələrə müasir bacarıqlar verməklə yanaşı, Naxçıvanı texnoloji mərkəzə çevirmək vizyonunu dəstəkləyir.

Bu əməkdaşlıq Naxçıvanın təkcə bugünkü tələblərinə deyil, həm də gələcəyin texnoloji transformasiyasına doğru bir addım atır. IBM-in qlobal texnologiya liderliyi Naxçıvan Dövlət Universitetinin təhsilin keyfiyyətini yüksəltmək və regiona rəqabət üstünlüyü gətirmək potensialını özü ilə gətirir. Bu da regiona yeni iş imkanları və texnologiya əsaslı sahibkarlıq imkanları təqdim etməklə regional inkişafa mühüm töhfə verir.

IBM və Naxçıvan Dövlət Universiteti arasında bu strateji tərəfdaşlıq təkcə təhsil sahəsində deyil, həm də texnoloji və regional inkişafda yeni üfüqlər açır.

Bir sözlə, bu əməkdaşlıq Naxçıvanın gələcək texnoloji potensialını gücləndirən mühüm mərhələdir.

**Səriyyə QASIMOVA**
*Naxçıvan Dövlət Universitetinin IBM üzrə koordinatoru, Elektronika və informasiya texnologiyaları kafedrasının müəllimi*

## Dövlət Proqramı həyata keçirilən iqtisadi tədbirlərin yol xəritəsidir

### *2023-cü ildə bu istiqamətdə mühüm addımlar atılıb*

Prezident cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiqlənən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda yaxın 4 il ərzində sahibkarlığın inkişaf etdirilməsi, bölgəyə yerli və xarici investisiyaların cəlbi, sənaye və kənd təsərrüfatında innovativ yeniliklərin tətbiqi, yerli xammal potensialından layiqincə istifadənin gerçəkləşdirilməsi qarşıya mühüm vəzifə kimi qoyulub. Həmçinin bəhs olunan dövrdə Naxçıvanın tranzit imkanlarının genişləndirilməsi, ixrac potensialının artırılması və əhalinin məşğulluğu prioritet istiqamətlər kimi müəyyənləşdirilib.



2023-cü il ərzində adıçəkilən Dövlət Proqramında nəzərdə tutulan əlverişli biznes mühitinin yaradılması, kiçik sahibkarlığın inkişaf etdirilməsi, şəffaf vergi və gömrük tənzimlənmələrinin tətbiqi, satınalmalarda müvafiq qaydalara əməl olunması məsələləri diqqətdə saxlanılıb. Məsələn, ötən ilin ilk 11 ayında 400-dən çox satınalma müsabiqəsi reallaşdırılıb. Bunun 270-ə yaxını kotirovka sorğusu, 125-i isə açıq tender üsulu ilə həyata keçirilib. Yaxud əvvəlki dövrlərdən fərqli olaraq yaradılmış əlverişli biznes mühiti nəticəsində sahibkarların vergi xidmətinə etimadı və onun xidmətlərindən istifadə səviyyəsi yüksəlib. Nəticədə, vergi yığımlarında artma nail olunub. Belə ki, ötən ilin 11 ayında muxtar respublikada Dövlət Vergi Xidmətinin xətti ilə büdcəyə 150 milyon manatdan çox vəsait daxil olub ki, bu da 2022-ci ilin eyni dövrü ilə müqayisədə 30 faiz çoxdur. Qeydiyyatdan keçmiş, yəni qanuni fəaliyyət göstərən vergiödəyicilərinin sayı isə ilin əvvəli ilə müqayisədə 20 faiz artıb. Həmçinin muxtar respublikada başlanan "ƏDV geri al" layihəsi çərçivəsində istehlakçılara 652,2 min manatdan çox, təkcə oktyabr ayında isə 98,9 min manat ƏDV məbləği geri qaytarılıb.

Mövcud biznesin inkişafı və onun qanuni maraqlarının müdafiəsi məqsədilə "KOB dostu" şəbəkəsinin genişləndirilməsinə də mühüm önəm verilib. Ötən dövrdə Naxçıvan, Culfa, Şahbuz şəhərləri və Sədərək rayonunda "KOB dostu" ofisləri fəaliyyətə başlayıb ki, bu da kiçik və orta biznesin inkişafına şərait yaradıb, sakinlərin kiçik və orta biznesə məşğulluğu stimullaşdırıb.

Biznesin inkişafında mühüm amillərdən biri də sahibkarların güzəştli və uzunmüddətli kredit resurslarına çıxışının olmasıdır. Buna görə də muxtar respublikada biznes subyektlərinin maliyyə resurslarına çıxışının asanlaşdırılması məqsədilə 2023-cü ildə Sahibkarlığın İnkişafı Fondu tərəfindən Naxçıvanda fəaliyyət göstərən bütün banklara 15 milyon manat vəsait ayrılıb. Həmin vəsaitdən ilin 10 ayı ərzində sahibkarlara 1,4 milyon manatdan çox güzəştli şərtlərlə kredit verilib.



Bununla yanaşı, ötən bir il ərzində Naxçıvanda banklar da fəallaşıb, yeni bank filialları fəaliyyətə başlayıb. Təsadüfi deyil ki, qısa müddətdə muxtar respublikada KOB (kiçik və orta biznes) kreditləri üzrə ixtisaslaşdırılmış banklar tərəfindən sənaye və ticarətin inkişafı məqsədilə kreditlərin artımına nail olunub, ilin yanvar-oktyabr aylarında verilmiş kreditlərin həcmi 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 40 faiz artıb. Pul ekvivalentinə gəlincə isə sənaye üzrə 40 milyon manata yaxın, ticarət üzrə 50 milyon manata yaxın kreditlər verilib.

Həyata keçirilən mühüm tədbirlərdən biri də muxtar respublikanın xammal potensialının yenidən qiymətləndirilməsi ilə bağlı görülən işlərdir. Məlumdur ki, muxtar respublikanın ərazisində 200-dən çox nəcib, qara və əlvan metallar, üzlük və bəzək daşları, kərpic və kirəmit gili, seolit, boksit, inşaat qumu, habelə yol tikintisi və beton üçün çınqıl, sement və əhəng xammalı, yeraltı içməli və müalicəvi termal su yataqları var. Muxtar respublika iqtisadiyyatına mühüm təsir göstərəcəyi nəzərə alınaraq bu potensialdan lazımınca istifadə olunması qarşıda duran mühüm vəzifələrdəndir. Bunun üçün ilkin olaraq Naxçıvan Muxtar Respublikasının mineral xammal ehtiyatlarının yenidən qiymətləndirilməsi üzrə 2023-cü ilin dövlət büdcəsi vəsaiti hesabına maliyyələşən geoloji kəşfiyyat işlərinin dövlət sifarişi hazırlanaraq ötən ilin iyul ayından işlərə başlanılıb.

Hazırda yataqlar üzrə geoloji təftiş işləri davam edir, bu sahəyə investisiya qoyuluşu üçün mineral və termal su mənbələrinin yerləri müəyyənləşdirilir, laborator analizlər aparılır və yataqların kadastrı hazırlanır. Yeri gəlmişkən, artıq əvvəlki illərdən fərqli olaraq muxtar respublika ərazisində qum və qum-çınqıl yataqlarının rəqabətli şəkildə istismarına da başlanılıb.

Yuxarıda sadalananlar Naxçıvanda aparılan islahatların və "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilən fəaliyyət planının əməli nəticəsidir. Görülən işlər isə bununla bitmir. Ümumilikdə, həyata keçirilən islahatlar və bu islahatların tərkib hissəsi olan iqtisadi tədbirlər dövlət orqanlarının strukturunun təkmilləşdirilməsinə, həmin orqanların xidməti fəaliyyətinin daha da yaxşılaşmasına və səmərəliliyinin artırılmasına, xarici investisiyaların cəlbinə, biznesin canlanmasına mühüm təsir göstərir.

Şübhəsiz ki, proqramın icrası yaxın gələcəkdə muxtar respublikanın yeni inkişaf perspektivlərinə nail olmaqla Naxçıvanın müasir dövrün çağırışlarına yüksək səviyyədə cavab verən regiona çevrilməsinə də öz təsirini göstərəcək.

**Səbuhi HƏSƏNOV**



# Bura Naxçıvanın bala "Zəngilan"ıdır...

***Naxçıvanın qucaq açdığı zəngilanlıların məskunlaşdığı Zəngilan məhəlləsinin varlığı bir neçə rayon sakinindən başqa çoxlarına məlum deyil. Mən də Culfa şəhərində belə bir məhəllənin olduğunu eşidəndə vaxt itirmədən yol aldım Culfa şəhərinə...***



Soraqlaya-soraqlaya həmin məhəlləni tapdım. Adıçəkilən ünvanda uzaqdan diqqətimi çəkən köhnə bir tikilinin qarşısında iki xanım söhbət edirdi. Onlara yaxınlaşıb burada məskunlaşan zəngilanlılarla söhbət etmək istəyimi bildirdim. Bəxtim gətirmişdi. Onlardan biri Zəngilandan olub, 1973-cü ildən elə bu məhəllədə yaşayan ***Zeynəb xanım*** idi. Onunla söhbətdən əvvəl düşüncələrə sövq edən binanın tarixi haqqında soruşdum. Zeynəb xala dedi ki, elə biz gəlib bu binanı belə görmüşük. Yaşlı insanlar deyirlər ki, bu bina İrəvan kərpicindən tikilib. Əvvəllər burada Mincivan-Culfa dəmir yolu xətti var idi. Zəngilanlı maşinistlər bu binada qalırdılar. Sonra ailəsi ilə birlikdə Culfaya gələn zəngilanlı dəmir yolu işçiləri üçün 3 bina tikildi. Buna görə də həmin məhəllə "Zəngilan məhəlləsi" adlandırıldı. Dəmir yolu işçilərinin əksəriyyəti mincivanlı olduğundan bura "Mincivan məhəlləsi" də deyirlər.

Zeynəb xala deyir ki, mənim yoldaşım da maşinist işləyirdi. O, culfalı idi. Culfa-Mincivan qatarını sürürdü. "Yoldaşımın bacısı Mincivana gəlin köçmüşdü. Onunla rəfiqə idik. Sonra da baldızım oldu", – deyib utancaq təbəssümlə gülür...

...O qədər səmimi söhbət edir ki, Zeynəb xala sanki məni illərdir, tanıyır. Bizi israrla evlərinə dəvət edir. Amma, təəssüf ki, zamanımız az olduğundan onunla sağollaşıb başqa bir Zəngilan sakininin sorağına düşürük. Zəngilanlıların yaşadığı binanın taxta pilləkənləri ilə yuxarı qalxırıq. Məni uşaqlıq illərimə aparan mavi boyayla rənglənən taxta bir qapını döyürük. Qapını balaca bir oğlan açır. Oğlanın arxasınca isə ağbənizli, nurüzlü bir xanım asta addımlarla qapıya tərəf gəlir. Öyrənirəm ki, bu xanım 1961-ci ildə ömür-gün yoldaşı Əziz kişi ilə Culfada elə bu binada məskunlaşan ***Ərkinaz nənə***dir. Allah qonağıyıq deyib içəri keçirik. "Allah qonağına canım fəda, ay bala", – deyən Ərkinaz nənə bizi mehribanlıqla qarşılayır. Hər küncündən, bucağından xatirələr boylanan hüzur dolu balaca evdə keçmiş günlərdən söhbət açırıq. Ərkinaz nənə deyir ki, yoldaşım 1960-cı ildə Mincivan-Culfa dəmir yolunda işə başladı. Biz də elə həmin il nişanlandıq, 1961-ci ildə isə toyumuz oldu. Sonra qərar verdik ki, köçüb Culfada elə bu məhəllədə dəmir yolu işçiləri üçün tikilən bu binada yaşayaq. Biz bura köçəndə gəldim-gördüm mincivanlıların hamısı burada. Əvvəllər bura "Mincivanski zdaniya" deyərdilər. Sonra hamısı birbir köçüb, getdilər. Yoldaşım buranı çox sevirdi. Ona görə də getmədi. Sonra yoldaşım rəhmətə getdi, mən bu binada qız, oğul böyütdüm, qızlarımı gəlin köçürdüm, oğlanlarımı evləndirdim. Bu binada mənim əziz xatirələrim var.

Ərkinaz nənə deyir ki, Allahdan ən böyük arzum ölməmişdən əvvəl Zəngilanın o gözəl, səfalı yerlərini görməkdir, buz bulaqlarının suyundan doyunca içməkdir. O qədər həsrətini çəkmişəm ki, yurd-yuvamın.

Həsrətlə dərindən ah çəkən Ərkinaz nənə kövrəlir, göz yaşlarını saxlaya bilmir. Titrək səsiylə "elinə, obasına, yurd yerinə illərlə həsrət qalanlar mənim acımı, həsrətimi anlayar..." – deyir.

Ərkinaz nənə deyir ki, Zəngilanın azad olunma xəbəri gələndə sevincimdən o qədər ağladım ki. Zəng vurdum bütün qohumlarıma, şirniyyat alıb qohum-qonşuya şirinlik payladım. Sağ olsun Prezidentimiz, doğma obamı düşmən tapdağından azad etdi. Şəhidlərimizə Allah rəhmət eləsin. Ürəyim qubar edir ki, öz yurdumu gedim görüm. Böyük oğlum söz verib ki, tezliklə məni Zəngilana aparacaq. Əgər Allah mənə nəsib etsə yurduma getməyi, qurban aparıb kəsəcəm kəndimizdə. Hamınızı da öz evimizə qonaq aparacağam, – deyir. Göz yaşları yanağında donan Ərkinaz ananın çöhrəsi gül-çiçək açır...

*...İllərdir, yurduna-yuvasına həsrət qalan Ərkinaz ananın timsalında, Qarabağ elinin əziz insanlarının çöhrəsində gül-çiçək açdıran, qəlbini sevinc, fərəh hissi ilə dolduranlara eşq olsun deyirik! Və ümid edirik ki, yenidən cənnətə dönən Qarabağa Vətən həsrəti, yurd nisgili çəkənlər tezliklə qatarla geri qayıdacaqlar!*

✍ **Gülcamal TAHİROVA**

## Ötən il 10 min 880 daşınmaz əmlak obyekti dövlət qeydiyyatına alınıb



Muxtar respublikada daşınmaz əmlak obyektləri üzərində mülkiyyət hüquqlarının qeydiyyata alınması, torpaq münasibətlərinin tənzimlənməsi sahəsində qarşıya qoyulmuş vəzifələrin uğurlu icrası Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən 2023-cü il ərzində diqqətdə saxlanılıb, vətəndaşlara keyfiyyətli xidmət göstərilməsi və müraciətlərin operativ cavablandırılması təmin edilib.

Ötən il ərzində muxtar respublika üzrə 10 min 880 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınıb ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 43,6 faiz çoxdur. Ümumi göstəricinin 3 min 684-ü ilkin, 7 min 196-sı təkrar qeydiyyatın payına düşüb.

Bəhs olunan dövrdə dövlət qeydiyyatına alınan daşınmaz əmlak obyektlərinin 4 min 249-u fərdi yaşayış evi, 4 min 28-i torpaq sahəsi, 1902-si mənzil, 332-si qeyri-yaşayış sahəsi, 264-ü qeyri-yaşayış binası, 101-i əmlak kompleksi kimi müəssisə, 4-ü isə çoxmərtəbəli yaşayış binası olub. Hesabat ilində təkcə Naxçıvan şəhəri üzrə 4 min 971 əmlak qeydiyyata alınıb ki, bu da ümumi göstəricinin 45,6 faizini təşkil edir, qalan 54,4 faiz isə muxtar respublikanın rayonlarının payına düşür.

Yanvar-dekabr aylarında 8006 daşınmaz əmlak obyektinin texniki inventarlaşdırılması aparılıb ki, bu da 2022-ci ilin göstəricisindən 40,3 faiz çoxdur. Həmin əmlaklardan 3 min 418-nə dair texniki pasport, 4 min 588-nə dair torpaq sahəsinin planı və ölçüsü tərtib edilib.

Daşınmaz əmlakın dövlət reyestrindən məhdudiyyət və yüklülüyə dair 3 min 804 arayış verilib, 4 min 894 əmlaka dair məlumat elektron informasiya sistemi vasitəsilə notariat ofislərinə təqdim edilib. Bu dövrdə qeydiyyata alınan ipoteka müqavilələrinin sayı isə 1096-ya çatıb.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin mətbuat xidməti***

## Hüquqları bərpa olunmuş mülkiyyətçilər minnətdarlıq edirlər



Məlum olduğu kimi, 2023-cü il muxtar respublikada bir çox sahələrdə mühüm islahatların aparıldığı il kimi yaddaşlara yazıldı. Bu islahatlar içərisində ən çox diqqətçəkən məqamlardan biri də ötən dövrdə mülkiyyət hüququ pozulmuş vətəndaşların hüquqlarının bərpası ilə bağlı atılmış addımlardır. Bu günlərdə Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsindən aldığımız məlumata görə, ötən il adıçəkilən məhkəmə icraatına təkcə mülkiyyət hüquqlarının pozulması ilə bağlı əmlak və kompensasiya tələbi üzrə 1000 iddia ərizəsi daxil olmuş və bunlardan 534 iş üzrə iddia tələbləri cavabdeh inzibati orqanlar tərəfindən məhkəmədənkənar qaydada təmin olunduğundan həmin işlər üzrə icraata xitam verilməsi barədə qərardadlar qəbul edilmişdir. Biz də **"Şərq qapısı"** qəzeti olaraq mülkiyyət hüquqları bərpa olunmuş həmin şəxslərdən bir neçəsi ilə görüşüb görülən işlər haqqında onların fikirlərini öyrənməyə çalışdıq.

Kəngərli rayonunun Qıvraq qəsəbə sakini ***Əkrəm Cəfərov*** bizimlə söhbətində bildirdi ki, vaxtilə qəsəbədə dərzi kimi fəaliyyət göstərib və bunun üçün ayrıca iş yeri də olub. Fəaliyyət üçün bütün sənədləri qaydasında olsa da, 2007-ci ildə həmin iş yerinin olduğu bina sökülüb və bununla bağlı mülkiyyətçiyə heç bir kompensasiya ödənilməyib. Müsahibimizin hüquqları bir də 16 il sonra – 2023-cü ildə bərpa olunub. Belə ki, qəsəbənin mərkəzində bələdiyyə torpağından ona 144 kvadratmetr sahənin ayrılması təmin edilərək həmin ərazidə müvafiq binanın tikilməsinə razılıq verilib. Bunun üçün həmin torpaq sahəsi üçün çıxarış da alınıb, həmçinin tikinti üçün layihə sənədləri də təsdiq edilib. Əkrəm Cəfərov yaxın biriki gün ərzində tikintiyə icazə ilə bağlı sərəncamı aldıqdan sonra işlərə başlayacağını bildirdi.

Digər həmsöhbətimiz də Qıvraq qəsəbəsindən idi. Sahibkar ***Rəşid Nağıyev***ə məxsus mağaza və çayxana da vaxtilə söküldüyündən bu müsahibimizin də mülkiyyət hüquqları kobud şəkildə pozulmuş və ötən dövrdə hüquqları bərpa edilməmişdir. Yalnız 2022-ci ilin dekabr ayında muxtar respublikada səlahiyyətli nümayəndəlik institutunun yaradılmasından sonra bir çox sahibkarlar kimi, Rəşid Nağıyev də tələb olunan qaydada məhkəməyə müraciət etmiş, problemin həlli üçün ona köməklik göstərilməsini xahiş etmişdir. Nəticədə, bu qəsəbə sakininin də hüquqları bərpa edilmiş, vaxtilə obyektin söküldüyü ərazi yenidən sahibkarın özünə qaytarılaraq müvafiq binanın tikintisinə icazə verilmişdir.

***İlyas Bayramov*** isə Naxçıvan şəhərindəndir. Vaxtilə şəhərin 57-ci məhəlləsində yerləşən bazarın qarşısındakı mağazası qanunsuz söküldüyünə görə onun da uzun illər hüquqları pozulub. 2023-cü ildə məhkəməyə müraciət edən sahibkar, nəhayət ki, istəyinə çatıb. Öyrəndik ki, kompensasiya üçün ona şəhərin fərqli tərəflərində torpaq sahələri təklif olunub. Həmin ərazilərin biri xidmət və ticarət obyektlərinin yerləşdiyi ərazi olsa da, sahəsi kiçik olduğundan razılaşmayıb. Təklif edilən digər ərazi isə yaşayış sahəsi üçün münasib olduğundan müsahibimiz bu ərazini özü üçün uyğun görüb. Yaxın günlərdə müvafiq sərəncamı alacağını deyən İlyas Bayramov, nəhayət ki, hüquqlarının bərpa olunduğu üçün və bu işdə əməyi olan hər kəsə təşəkkürünü bildirdi.

Qeyd edək ki, ötən il Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsinə ən çox müraciət iddiaçıların mülkiyyət hüquqlarının pozulması ilə bağlı olub. Lakin dövlət idarəçiliyində yeni islahatların tətbiqi vətəndaşların, xüsusilə mülkiyyətçilərin hüquqlarının bərpasına şərait yaratmaqla yanaşı, sahibkarlarda məhkəmə-hüquq sisteminə inamı da artırır. Bizimlə həmsöhbət olan mülkiyyətçilər də bunu bir daha dilə gətirərək bu işdə əməyi olanlara minnətdarlıqlarını ifadə etdilər.

✍ **Səbuhi HƏSƏNOV**

## Qazi və şəhid ailələri işlə təmin edilib

Muxtar respublikamızda torpaqlarımız uğrunda xüsusi fədakarlıq göstərmiş şəhid və qazi ailələri diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətindən aldığımız məlumata görə, ötən il nazirliyin maddi-texniki bazası, kadr potensialı gücləndirilib. Nazirlik sistemində kadr islahatlarının aparılması davam etdirilərək 97 nəfər, onlardan 27 nəfəri qazi və şəhid ailəsi olmaqla xidmətə qəbul edilərək müvafiq vəzifələrə təyin edilib.

## Tikinti işlərinin keyfiyyətinə nəzarət diqqətdə saxlanılıb



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətindən aldığımız məlumata görə, ötən il dövlət nəzarəti zamanı 107 obyektə tikinti işləri dayandırılmadan yol verilən pozuntuların aradan qaldırılması barədə göstəriş, 48 obyektə təkrar göstəriş və 29 obyektə isə tikinti işlərinin dayandırılması barədə qərar verilib. 23 yaşayış sahəsinin təyinatının qeyri-yaşayış sahəsinə dəyişdirilməsi ilə bağlı təqdim olunan layihələrə uyğun yaşayış sahələrinə baxış keçirilib və hazırlanan layihə əsasında aparılması nəzərdə tutulan işlər yerində təhlil olunub. Muxtar respublika ərazisində mövcud olan 62 qeyri-yaşayış obyektinin müayinə olunması ilə bağlı Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinə edilən müraciətlərə aidiyyəti üzrə baxılıb.

Mətbuat xidmətindən qeyd edildi ki, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin şəxsi heyəti bundan sonra da fəaliyyətini qarşıya qoyulan tələblər əsasında quracaq, əhalinin və ərazilərin təhlükəsizliyi naminə təxirəsalınmaz tədbirləri uğurla yerinə yetirəcəkdir.

**Xəbərlər şöbəsi**

# Qış nağılı



Ağ örtüyü ilə təbiəti duvaqlı gəlinə bənzədən fəsil. Yeri, göyü, təbiəti donduran fəsil. Həm də bütün bu xüsusiyyətləri ilə sevilən fəsil. Qışı ən çox uşaqlar gözləyir, onlar sevir. Çünki bu günlərdə uşaqlıq şıltaqlığının ən gözəl anlarını yaşayırlar.

Bir səhər çölə çıxırsan və gözlərin qarşısında təsviregəlməz dərəcədə gözəl mənzərə canlanır. Hər yer dümağ, parıldayan ipəyə oxşayır. Göydən isə sanki ələkdən un ələnir. İlk qarın sevincini yaşayıram. Hamı bir ağızdan "Hə, bu da qışın ilk qarı", – deyir. Bu xəbəri eşidən körpələr yerlərindən qalxıb gözlərini ova-ova birbaşa küçəyə qaçırlar. Şadlıqdan atılıb-düşür, pambıq kimi ağ qarın üstünə uzanıb, iz salırlar. Qardan adam düzəldib əlinə əsa vermək, qartopu oynamaq az qala həyatlarının mənasına çevrilir əziz balaların. Qartopu oynamaqdan əlləri üşüyən uşaqlar isinmək üçün evə girərkən bir başqa aləm olurlar. Soyuqdan qızarmış yanaqları, balaca, qırmızı turpu xatırladan burunları onları sevimli nağıl qəhrəmanlarına bənzədir.

Mənə elə gəlir ki, qış paklıq rəmzidir. Çünki örpəyi ağappaqdır. Məncə, qış fəsli insanı xatırladır. Bilirsiniz niyə? Ən azından ona görə ki, gözəllik, zəriflik rəmzi olan xanımlar ər evinə yola düşərkən ağ paltar geyinirlər. İnsan son mənzilə də ağ kəfəndə gedir. Qışda təbiət özü də ağ don geyinir. Qışda gecələr uzun, gündüzlər qısa olur. Bunu deməkdə məqsədim sizi öyrətmək deyil. Məqsədim başqadır. Demək istəyirəm ki, belə uzun qış gecələrini yaşamaq insanın alın yazısıdır. Amma necə yaşamaq? Nə etməli ki, gecələr maraqsız, cansıxıcı olmasın. Axı başqa fəsillərdə insanlar daha çox çöldə-bayırda olur. Qışda isə bütün tədarükünü görmüş adamlar qış evinə çəkilirlər.

Qışdan danışanda nənəmin söylədiyi uşaqlıq xatirələri canlanır yenə yaddaşımda:

– O zaman biz qış gecələrini başqa cür keçirərdik. Hamı lampa işığında sobanın başına toplaşardı. Bütün qonşular bir yerə yığışar, maraqlı söhbətlər edər, kimin bir işi olsa, köməkləşib görərdilər. Hərə bir işlə məşğul olardı. Analar övladlarına isti əlcəklər, corablar, köynəklər toxuyardı. Qızlar, gəlinlər müxtəlif şirniyyatlar bişirər, süfrəyə pürrəngi çay gətirərdilər. Çayın yanında mütləq yaydan görülən tədarüklərdən olardı. Məsələn, müxtəlif meyvələrin qurusu,



başqa sözlə desək, meyvə qaxı. Ərik, şaftalı, gavalı, alma və xüsusən də çay süfrələrinin ayrılmaz neməti tut qurusu. Baba və nənənin yeri isə evin ən yuxarı başı olardı. Onları uşaqlar dövrəyə alardılar, – ay nənə, ay baba, bizə nağıl danış, – deyərdilər. Onlar da bildiklərini, bəzən də özlərindən nağıllar uydurub balalara söyləyərdilər – hamının diqqətlə dinlədiyi, uzun bir qış gecəsinin macəralarla dolu bir qış nağılı. Eh, ay bala, o zaman hamı bisavad idi. Yoxsa yazıb-oxumaq bilən olsaydı, o nənə-babaların nağıllarını toplayıb yazardı. İndi, bəlkə də, bunlar "qış nağılları" adı ilə neçə-neçə kitablara sığmazdı. Nənəm danışdıqca da gözləri bir nöqtəyə dikilirdi. Görünür, nənəm uşaq olarkən nənəsinin ona söylədiyi nağılları xatırlayırdı... Kim bilir...

Əslində, xatırlayıram. Elə o nağıl kimi, nağılla dolu olan, lampa işığında, odun sobasının başında babamın danışdığı nağılları, maraqlı və həyəcan dolu söhbətləri, bir də mənə öyrətdiyi şeirləri. Hərdən düşünürəm ki, o gecələrdən bircəciyini elə bircə dəfə yenidən, təkrar yaşamaq üçün nələri qurban verərdim? O günlərdən birinə qayıtmaq üçün nələrdən keçməzdim ki? Amma ötüb keçənləri geri qaytarmaq olmur. Hər şey zamanın axarında tarixə qovuşub, köhnə bir nağıl kitabının saralmış vərəqi kimi üstünə digər vərəqlər qalanır. Bizə qalansa o günlərin xoş xatirələri olur və bir də yadigarlar. Böyüklərin söz yadigarları...

Hər fəsil təbiətə bir don geyindirir. Amma qışın donu daha gözəl olur. Bir anlıq təsəvvür edin. Qışdır. Hər tərəf ağdır. Göz işlədikcə uzanan qarlı yollar. Göydən isə ağ, narın dənəciklər tökülür. Ağ mirvariyə bənzəyən bu dənəciklərə diqqət yetirdikdə bəzən elə naxışlara rast gəlmək olur ki, bu naxışları yaratmağa heç bir rəssam təxəyyülünün və fırçasının gücü yetməz. Bu güc yalnız təbiət adlı rəssamın fırçasındadır. Belə bir vaxtda qarın üstü ilə tənha addımlayırsan. Ayağın altında qar yavaş-yavaş səs salır. Bu adi səs, diqqət etsəniz, sanki sizə nəsə pıçıldayır. Deyir, qorxmayın soyuğumdan, şaxtamdan, onsuz da qarşıdan bahar gəlir.



Hə, dedim, yadıma düşdü. Qış ona görə gözəldir ki, ondan sonra nərgiz, bənövşə ətirli bahar gəlir. Hər tərəfin ağ don geyinməsi, evlərin damından asılan buz parçaları, çılpaq ağacların üzərində özünə yer edən qırov təbiətə elə gözəl bir görüntü verir ki, adamın lap rəssam olub bu mənzərəni çəkməyi, şair olub bu mənzərəni misraların yaddaşına köçürməyi gəlir. Amma nə etməli ki, hamının belə istədadı olmur. Tamaşa etmək isə heç bir bacarıq istəmir. Əlimizdən nə gələr ki...

Qarın üstü ilə yeriyərkən ayaqlar altından çıxan qar səsi nağıl söyləyir bizə – "Qış nağılı". Deyir, biri var idi, biri yox idi. Bir ana təbiət var idi. Təbiətin dörd övladı var idi. Birinin adı Yaz, birininki Yay, birininki Payız, o birininki isə Qış. Qışın da üç övladı vardı: Dekabr, Yanvar, Fevral. Ana təbiət bütün övladlarını sevirdi. Amma daha çox Qışı əzizləyirdi. Axı o sonbeşik idi. Doğrudan da, fəsilləri sayarkən bu övlad ən axırda gəlir. Yaz, Yay, Payız və Qış. Ana təbiət Qışı bir də ona görə çox sevirdi ki, başqa övladlarından fərqli olaraq onun bir gününü də əlindən almışdılar. Kiçik övladı olan Fevralın ömrü 28-29 gün idi. Həm də Qış olmasa, onun qarı olmasa həyat da, yəqin, olmaz. Qışda qar yağır. Dincə qalmış torpaq su içir və yazda cücərir, bar verir… "Qış nağılı" yol uzandıqca davam edir. Sən isə mənzil başına çatmısan...

Uzun qış gecələrindən söhbət düşərkən Əzizə Cəfərzadənin "Nənəmin nağılları" kitabı yadıma düşür. Deyirəm, bəlkə də, xalqımızın yaddaşında min illərdir, qalan nağıllar məhz o zaman yazılıb.

Qış gecələrində nənə, babaların nağıllarına qulaq asa-asa yuxuya getmək uşaqların ən sevimli adətidir. Belə vaxtlarda onlar nağılla yatıb, nağılla dururlar. Çünki nağılların müşayiəti ilə yatan körpələr elə maraqlı yuxular görürlər ki, özlərini başqa aləmdə nağıllar dünyasında təsəvvür edirlər…

Qış! Bu fəsil gah yağışlı, gah qarlı, gah şaxtalı, gah da küləkli qonağımız olur. Bəs nə etməli, axı yaşamaq lazımdır qışı, gözəl bir qış nağılını...

Bəli... Yenə qış gəldi qonaq... Amma dəhşətli soyuğu, güclü qarı ilə yox. Mülayim havası və yağmuru ilə... Sevməyənlərimiz də var qışı, amma sevənləri də az deyil qışın... Hələ ki, qar yağmayıb şəhərimizə, amma torpağın da, bitkilərin də yatmağa, dincəlməyə ehtiyacı var...

Düzdür, nağıllardakı kimi qışlar yoxdur – nağıllı, çovğunlu, qarlı, boranlı... Eh, indi çovğunlu, qarlı, boranlı qış olsa da, heç kimi qorxutmur. Hər kəsin evində isti ocağı, qazı, işığı var. Nənəm deyir ki, Allah o qışları aparsın, bir də gətirməsin. Nə deyək? Biz də nənəmizə qoşuluruq: gətirməsin o qışları... Amma uşaqların həsrətlə gözlədiyi qarı gətirsin, uzun qış gecələrindəki şirin "Qış nağılı"nı gətirsin. Hamının, hətta böyüklərin də həsrətlə gözlədiyi qarı gətirsin…

Biz də uzun bir qış gecəsində şirin bir "Qış nağılı"na qulaq asaraq deyək: – Yenə qış gəldi qonaq...

✍ **Məmməd BABAYEV**

## Beynəlxalq reytinqli şahmat turnirində 5 tur arxada qalıb



*Şahmat Mərkəzində Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr edilən beynəlxalq reytinqli şahmat turniri davam edir.*

Azərbaycan Şahmat Federasiyasının dəstəyi, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri və Naxçıvan Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən, Beynəlxalq Şahmat Federasiyasının (FIDE) təqviminə daxil olan yarışda 62 zəka sahibi İsveçrə sistemi üzrə mübarizə aparır.

9 turdan ibarət olan turnirdə artıq 5 tur geridə qalıb. Turnirin son iki turu daha maraqlı hadisələrlə yadda qalan olub. Belə ki, Naxçıvan şahmatçısı, beynəlxalq usta Pərviz Qasımov (2362) qadın qrossmeyster Zeynəb Məmmədyarova (2173) ilə görüşdə parlaq qələbə qazanıb. Digər zəka sahibimiz beynəlxalq usta Toğrul Həsənzadə də (2329) turnirdə uğurla çıxış edir. Ümumiyyətlə, turnirdə Naxçıvan şahmatçılarından Yasin Əzimov (1608), Rza Həsənli (1622) və FIDE ustası Nəsrin Babayeva (1806) uğurlu çıxışları ilə yadda qalıb.

Beynəlxalq reytinqli turnirin ən yaddaqalan anı isə 3-cü turda qeydə alınıb. İdmanın "ədalətsiz püşkü" kimi qiymətləndirilən görüşdə ata Həbib Mustafayevlə (1237) oğlu Səbuhi Mustafayev (1599) ağqara taxtada üz-üzə gəlib. Görüş hər iki tərəfi razı salacaq "sülh"lə başa çatıb.

Bu gün beynəlxalq reytinqli turnir iştirakçılarının istəkləri nəzərə alınaraq saat $16^{00}$-da Naxçıvan Şahmat Mərkəzində Blitz turniri də keçiriləcək.

Qeyd edək ki, yanvarın 15-də yekunlaşacaq turnirdə ilk üç yerin sahibi və müxtəlif nominasiyaların qaliblərinə diplom və pul mükafatı təqdim olunacaq və nəticələr beynəlxalq reytinq hesablamaları üçün FIDE-yə göndəriləcək.

✍ **Ceyhun MƏMMƏDOV**


### İtmişdir

Culfa rayonunun Xanəgah kənd sakini Yunisov Nadir Cəbrayıl oğlunun adına olan JN-34 nömrəli torpağın mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Maxta kənd sakini Əzizov Məmmədsaleh İsa oğlunun adına olan JN-441$^A$ və JN-441$^B$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamələr" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Maxta kənd sakini Əzizov Valeh İsa oğlunun adına olan JN-181 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Məmmədsabir kənd sakini Səfərov Rövşən Beytulla oğlunun adına olan 157$^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Məmmədov Afik Vəli oğlunun adına olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçunun hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonunun Sədərək kəndində yaşamış Əliyev Həsən İsmayıl oğluna məxsus Sədərək rayon Qaraağac kəndində JN-41$^A$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Püsyan kəndində yaşamış Sultanov Abbasqulu Bəhlul oğlunun adına verilmiş JN-982 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonunun Darkəndində Baxşıyev Famil Abdulla oğlunun adına verilmiş JN-333 nömrəli 10703038 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Sadiqov Zəfər Cəfər oğlunun adına 07.XI.2008-ci il tarixdə verilmiş AA-002643 seriya nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Ordubad şəhəri, Ünbül Leyla Axund küçəsi, 6$^A$ ünvanda Həsənov Nəriman Əllamə oğlunun adına olan 1029 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Kalbaoruc Dizə kəndində yaşamış Babayev Həsən Abbas oğlunun adına olan JN-076 inventar nömrəli, 10302048 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Yeni yol (indiki Məmmədrza Dizə) kənd sakini Rzayev Ələddin Fəxrəddin oğlunun adına verilmiş JN-113 nömrəli, 10302028 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Ə.Qəmküsar küçəsi, ev 1A, mənzil 6 ünvanında qeydiyyatda olmuş Məhərrəmov Əli Səfəralı oğlunun adına "Qaz-51" markalı 75 BJ 682, "Naz Lifan LF 7132/2-320" markalı 75 BA 361 dövlət qeydiyyat nişanlı avtomobillərin sənədləri itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 05